

**Prezidentin yeni Sərəncamı 4500-ə yaxın şəxsə şamil olunacaq** 4

# "Azərbaycan dünya birliyi üçün etibarlı tərəfdaşdır"

**Prezident İlham Əliyev bir sıra ölkələrin ölkəmizdə yeni təyin olunmuş səfirlərini və Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsini qəbul edib**



2


# Səs

№ 068 (6509) **20 aprel** 2022-ci il. **Qiymətı 60 qəpik**


# Şuşada Qurultay: ermənilər isterik həddə və aqoniyada!




4

Dünya azərbaycanlılarının V qurultayının ilk dəfə işğaldan azad edilmiş və Qarabağımızın mirvarisi hesab edilən Şuşa şəhərində keçirilməsi erməniləri isterik həddə çatdırıb və onlar necə deyərlər, içlərini gəmirə-gəmirə qalmaqla yanaşı, sözün əsl mənasında, özlərinə yer tapa bilmirlər. Məsələ həm də ondadır ki, Şuşaya Azərbaycan...

## "Ermənistan öz məğlubiyyətini rəsmiləşdirən sənədə imza atmamağa çalışır"



15

## Türkiyədə karantin rejimi ləğv edilir

Türkiyə Koronavirus Elmi Qərargahı tibbi maskalardan istifadə tələbi və karantin rejiminin ləğv edilməsi məsələlərini...



16

## Dövlət və cəmiyyət arasında körpü

5



Dövlət və qeyri dövlət qurumlarında, o cümlədən özəl strukturlarda şəffaflığın təmin edilməsi üçün ictimai nəzarət institutlarının fəaliyyətinə ehtiyac...



## Kadr islahatı necə həyata keçirilməlidir?

11

İş yeri qaydaları iş yerinin üslubuna, görülən işə, iş yeri siyasətinə və bir çox amillərə görə dəyişə...



## Bəhruz Quliyev: "MQ-nin əhəmiyyətsizliyini ilk dəfə və qəti olaraq İlham Əliyev gündəmə gətirdi"

7

"Minsk qrupu (MQ) nəinki vasitəçilik, eləcə də ömrünü başa vurmuş institut kimi tarixin arxivinə göndərilir və bu məsələdə...

# "Azərbaycan dünya birliyi üçün etibarlı tərəfdaşdır"

## *Prezident İlham Əliyev bir sıra ölkələrin ölkəmizdə yeni təyin olunmuş səfirlərini və Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsini qəbul edib*

### *Rəsmi xronika*

Prezident İlham Əliyev Dövlət qulluqçusunun xidməti vəsiqəsinin təsvirinin və nümunəsinin təsdiq edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında Sərəncam imzalayıb.



***Prezident İlham Əliyev dünən Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Avropa İttifaqının nümayəndə heyətini salamlayan Prezident İlham Əliyev qeyd edib ki, Ermənistan tərəfi ilə aydınlaşdırılmasına ehtiyac olan məsələlərdən biri də Azərbaycanla və Naxçıvan Muxtar Respublikası ilə kommunikasiyalar məsələsidir: "Mən həm dəmir yolunu, həm də avtomobil yolunu nəzərdə tuturam. Çünki dəmir yolu ilə bağlı mən Prezident Mişelə məlumat verdim ki, biz dəmir yolunun Azərbaycan ərazisində 100 kilometrdən artıq 60 kilometrlik hissəni tikmişik və tikintini gələn il tamamlayacağıq. Lakin əfsuslar olsun ki, Ermənistanda onlar heç bu işin texniki-iqtisadi əsaslandırılmasına başlamayıblar, bu da prosesin ləngiyə bilməsini göstərir.***

Avtomobil yoluna gəldikdə, Azərbaycan tərəfindən fəal tikinti işləri gedir və yolun böyük hissəsi artıq inşa olunub. Biz, həmçinin ümid edirik, yəqin ki, növbəti ilin sonuna kimi avtomagistralı Ermənistan sərhədinə çatdıracağıq. Lakin təəssüf ki, Brüssel görüşü zamanı Ermənistanın baş naziri coğrafi koordinatları qeyd etməmişdir. Mən fevralın 4-də videokonfrans vasitəsilə keçirilən görüşdə bu məsələni qaldırdım, lakin cavab olmadı. Aprelin 6-da mən yenidən yolun coğrafi koordinatlarının təqdim edilməsini istədim, lakin cavab olmadı. Ümidvaram ki, tezliklə onu əldə edəcəyik."

Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar:

"Təşəkkür edirəm, cənab Prezident. Həmçinin Prezident Mişel də Sizə ən xoş arzularını çatdırır. Qeyd etdiyiniz kimi, o, prosesə və prosesin dəstəklənməsinə çox sadiqdir. Onun fikri, bizim fikrimiz ondan ibarətdir ki, Brüsseldəki görüş çox uğurlu oldu. Qeyd etdiyiniz kimi, biz razılaşdırılmış məsələlərin həyata keçirilməsi və davam etdirilməsinin təmin olunması üzərində işləməliyik. Mənim səfərimin məqsədi bundan ibarətdir. Mən Sizin növbəti addımları nədə gördüyünüzü eşitmək və Avropa İttifaqı olaraq normallaşma prosesini dəstəkləmək, əhatəli nizamlanma istiqamətində çalışmaq üçün nə edə biləcəyimizi öyrənmək üçün bu gün burada olacağam, həftənin ikinci yarısında isə İrəvana gedəcəyəm."

### "Azərbaycanla Kuba beynəlxalq təşkilatlarda bir-birini həmişə dəstəkləyir"

Prezident İlham Əliyev dünən Kuba Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Karlos Enrike Valdes de la Konsepsyonun etimadnaməsini də qəbul edib. Dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin uğurla inkişaf etdiyini vurğulayaraq Kuba Prezidentinin Qoşulmama Hərəkatının Bakıda keçirilən Zirvə Görüşündə iştirak etmək üçün Azərbaycana səfərini və onunla görüşünü məmnunluqla xatırlayıb, görüş zamanı əlaqələrimizin geniş gündəliyi ilə bağlı məhsuldar danışıqların aparıldığını bildirib.



Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycanla Kubanın beynəlxalq təşkilatlarda, o cümlədən BMT və Qoşulmama Hərəkatında əməkdaşlığı ölkələrimizin bir-birini həmişə dəstəkləməsinin yaxşı nümunəsidir. Dövlətimizin başçısı iqtisadi, mədəni, tibb, idman və digər sahələrdə ikitərəfli münasibətlərimizin inkişafı üçün yaxşı perspektivlərin olduğunu vurğulayıb. Xoş sözlərə görə minnətdarlığını bildirən Karlos Enrike Valdes de la Konsepsyon, ilk növbədə, Kuba Respublikasının Prezidenti Migel Dias-Kanel Bermudesin salamlarını dövlətimizin başçısına çatdırıb.

### "Azərbaycanla Misir arasında siyasi və mədəni sahələrdə sıx əlaqələr mövcuddur"



Prezident İlham Əliyev aprelin 19-da Misir Ərəb Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Hişam Mohamed Nağı Abdel Həmidin etimadnaməsini qəbul edib.

Dövlətimizin başçısı Azərbaycanla Misir arasında siyasi və mədəni sahələrdə sıx əlaqələrin mövcud olduğunu vurğulayaraq beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimizin qarşılıqlı dəstəyini qeyd edib. Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına sədr seçilməsi və sədrlik müddətinin uzadılması ilə bağlı Misirin dəstəyini yüksək qiymətləndirib. Dövlətimizin başçısı İslam Əməkdaşlıq Təşkilatında fəal əməkdaşlığımızı qeyd edib və ölkəmizin ərazisinin bir hissəsinin Ermənistan tərəfindən işğalı zamanı Azərbaycanın ərazi bütövlüyü ilə bağlı qətnamələrə verdiyi davamlı dəstəyə görə də Misirə minnətdarlığını bildirib. Prezident İlham Əliyev bu yaxınlarda İslam Əməkdaşlıq Təşkilatının nazirlər səviyyəsində görüşündə Azərbaycanın mədəni irsi və ərazi bütövlüyünün bərpası ilə bağlı qətnamələrin qəbul olunmasında təşkilatın güclü dəstəyini xüsusi olaraq vurğulayıb. Dövlətimizin başçısı Azərbaycanın da öz növbəsində Misiri beynəlxalq arenada dəstəklədiyini bildirdi. Prezident İlham Əliyev dedi ki, Azərbaycan işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa-yenidənqurma işlərində Misir şirkətlərinin iştirakından məmnun olar və bu, əməkdaşlığımızın yaxşı nümunəsi ola bilər. Xoş sözlərə görə minnətdarlığını bildirən səfir ölkəsinin əlaqələrimizin inkişaf etdirilməsi istiqamətində fəaliyyətdə maraqlı olduğunu vurğulayıb.

### "Ölkələrimiz arasında bərpa olunan enerji sahəsində çoxmilyardlı investisiya portfeli üzərində iş aparılır"

Prezident İlham Əliyev eyni zamanda aprelin 19-da Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Məhəmməd Əl Bluşinin etimadnaməsini qəbul edib.

Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin bütün sahələrdə dinamik şəkildə uğurla inkişaf etdiyini bildirib. Abu-Dabinin vəliəhdi, Birləşmiş Ərəb Əmirlikləri Silahlı Qüvvələrinin Ali Baş Komandanının müavini Məhəmməd bin Zayed Əl-Nəhyanla telefon söhbətini xatırladan Prezident İlham Əliyev həmin söhbət zamanı əlaqələrimizin daha da intensivləşdirilməsinin vacibliyini bildirdiyini vurğulayıb. Dövlətimizin başçısı hazırda ölkələrimiz arasında bərpaolunan enerji sahəsində çoxmilyardlı investisiya portfeli



üzərində iş aparıldığını bildirib və bunu iki ölkə arasında dostluq, qardaşlıq və böyük qarşılıqlı marağın göstəricisi kimi dəyərləndirib. Dövlətimizin başçısı vurğulayıb ki, Azərbaycanda çox əlverişli investisiya iqlimi, cəlbedici enerji sektoru mövcuddur və bu, BƏƏ hökuməti tərəfindən də yüksək qiymətləndirilir.

Xoş sözlərə görə minnətdarlığını bildirən səfir BƏƏ Prezidenti Şeyx Xəlifə bin Zayed Əl-Nəhyan, BƏƏ-nin vitse-prezidenti Şeyx Məhəmməd bin Rəşid Əl-Maktum və Abu-Dabi Əmirliyinin vəliəhdi Şeyx Məhəmməd bin Zayed Əl-Nəhyanın salamlarını dövlətimizin başçısına çatdırıb.

Ölkələrimiz arasında güclü qardaşlıq əlaqələrinin mövcud olduğunu vurğulayan səfir BƏƏ-nin siyasi, iqtisadi, sosial, mədəni sahələrdə əməkdaşlığımızın daha da genişləndirilməsi istiqamətində böyük səylər göstərdiyini bildirib.

# Dünya Azərbaycanlılarının Zəfər qurultayı!

*İlham Əliyev: "Vətəndən kənarda yaşayan soydaşlarımız həmişə bilsinlər ki, onların arxasında güclü Azərbaycan dövləti dayanır və onlar hər zaman Azərbaycan dövlətinə arxalana bilərlər"*

Ölkəmiz çox mühim tədbirin astanasındadır. Bu həftə Dünya Azərbaycanlılarının Zəfər Qurultayı Azərbaycanın mədəniyyət mərkəzi olan Şuşada, tariximizin Qələbə təntənəsi olan "Şuşa İli"ndə keçiriləcək. Tədbirin baş təşkilatçısı Diasporla iş üzrə Dövlət Komitəsidir. Vətəndən kənarda yaşayan soydaşlarımıza diqqətin göstərilməsi dövlət üçün hər zaman prioritetdir. Məhz bu qurultayın keçirilməsində də əsas məqsəd xaricdəki soydaşlarımızın Vətənlə əlaqələrinin daima qırılmaz tellərlə bağlanmasıdır. Və Dünya Azərbaycanlıların V qurultayının Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qüdrətli Ordumuzun düşmən işğalından azad etdiyi, Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşa şəhərində keçirilməsi böyük tarixi və qürurverici hadisədir. Hazırda qurultaya hazırlıq işləri yekunlaşmaq üzrədir.Qurultay iştirakçıları ilk öncə Bakı şəhərində Fəxri xiyabanı, Birinci və İkinci Şəhidlər xiyabanını ziyarət edəcək, daha sonra Şuşa şəhərinə yola düşəcəklər.Möhtəşəmliyi ilə yaddaşlara həkk olunacaq qurultayda 65 ölkədən 400 nəfərə yaxın diaspor nümayəndəsinin iştirakı gözlənilir. Qurultayın rəsmi açılış mərasimindən sonra Diasporla İş üzrə Dövlət Komitəsinin fəaliyyətinə dair hesabat verilməsi, "Postmüharibə dövründə Azərbaycan diasporunun qarşısında duran vəzifələr", "Qarabağın bərpası və yenidən qurulmasına Azərbaycan diasporunun töhfələri" mövzularında müzakirələrin təşkili planlaşdırılır. Qeyd edək ki, Dünya Azərbaycanlılarının V Qurultayı son illər yüksək təşkilatlanma və birlik nümayiş etdirən, beynəlxalq ictimaiyyətin Azərbaycan həqiqətləri ilə bağlı məlumatlandırılmasında xüsusi rol oynayan diasporumuzun Qarabağın azad edilməsindən sonra ilk böyük görüşü olacaq.

### "ŞUŞA AYAQDADIR, ŞUŞA SINMAYIB, ŞUŞA ƏYİLMƏYİB!"

Bəli, dünyanın hansı ölkədə yaşamasından asılı olmayaraq bu qurultaya təşrif buyuracaq hər bir azərbaycanlı 30 il arzusunda olduğu Qarabağ yanğısını, Şuşaya gəlməklə bu həsrəti soyutmuş olacaqlar. 8 noyabr, 2020-ci il Şuşanın azad olunduğu və onun ardınca 10 noyabrda son qoyulduğu tarixi günləri xalqımıza yaşadan Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev, Şanlı Azərbaycan Ordusu, rəşadətli əsgər və zabitlərimiz bəxş etdi. Tarixi sənəd imzalandı: Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın tam qələbəsi ilə başa çatdı! Ali Baş Komandanımız yenə də tarixdə ən böyük Qələbəni - Vətən Müharibəsi Azərbaycanın tam qələbəsi ilə başa çatdığı müjdəsini xalqımıza, bütün dünyaya çatdırdı. Bildirdi: "İndi bizim gördüyümüz münaqişənin hərbi-siyasi nizamlanması əminəm ki, regionumuzda uzunmüddətli sülhə, həmrəyliyə gətirib çıxaracaq, qarşıdurmaya və qan tökülməsinə son qoyacaq. Bəli, Bəli, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! VƏSSALAM, NİDA! BAŞQA YOL YOXDUR!!! Bu yol Qələbələr yoludur! Bu yol Haqq yoludur! Bu yol Azərbaycanımızın ərazi bütövlüyü yoludur, ədalət yoludur, həmrəylik yoludur, azadlıq yoludur!".

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev cənablarının qətiyyətli addımları, xalqa müraciətləri cəmiyyətimizdə, dünyanın hansı nöqtəsində yaşamağından asılı olmayaraq, qəlbi Azərbaycanla döyünən hər kəsdə ruh yüksəkliyi yaratmasıdır. Və dövlət başçımız İlham Əliyev 19 illik Prezidentlik fəaliyyətində ancaq və ancaq düşmən tapdağında olan torpaqlarımızın azad edilməsi ilə bağlı yüksək tribunalarda, verdiyi müsahibələrində qətiyyətlə çıxışları, söylədiyi hər söz, hər kəlməsi, Güclü Ordumuzun, rəşadətli əsgərlərimizin və nəhayət, dövlət başçımızla xalqımızın bir, həmrəy olmağımızın nəticəsi idi ki, 8 noyabr-10 noyabr tarixi günün sabahı da əvvəlki sabahlardan fərqli oldu. 30 illik həsrətimizə son qoyuldu! Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə Ermənistan siyasi rəhbərliyinə, erməni xalqına müraciət edərək, onları münaqişənin sülh yolu ilə həll olunmasına çağıraraq bildirirdi ki, qan tökülmədən torpaqlarımızdan çıxın. Bizim başqasının torpağında gözümüz yoxdur. Ancaq işğalçı, rəzil, mənəviyyatsız və terrorçu düşmən dövlət Ermənistan bunu anlamadı. Dövlət başçımız dəfələrlə "düz yola gəl" dedi, yenə də qanmadı. Belə olan halda, Ali Baş Komandanımızın dediyi kimi "Çünki düşmən bizim qarşımızda acizdir. Düşmənin belini qırırıq, qıracağıq!".

### "BİZ ŞUŞAYA QAYITDIQ, BİZ ŞUŞANI QAYTARDIQ, BİZ ŞUŞADA YAŞAYACAĞIQ VƏ İŞĞALDAN AZAD EDİLMİŞ DİGƏR BÜTÜN TORPAQLARDA HƏYAT QAYNAYACAQ"




8 noyabrda Prezident, Ali Baş Komandanımız İlham Əliyev Şuşanın azad olunma müjdəsini və üçrəngli Dövlət Bayrağımızın dalğalandığını dedi. Ayağı sayalı oldu Şuşanın - 9 noyabr qürurumuz, məsləkimiz, mənliyimiz olan "Bayraq Günü" zamanı 71 kəndlərin, 1 qəsəbə və 8 yüksəkliyin azad olunması, 10 noyabrda isə Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putin videokonfrans formatında görüşdə yenə də Ermənistanın baş nazirinin iştirak etməməsi bir daha terrorçu dövlətin xislətinin sübut etdi. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində söylədiyi kimi: "Bu bəyanat bizim şanlı qələbəmizdir. Şadam ki, bu gün bu müjdəni Azərbaycan xalqına verirəm. Hesab edirəm ki, bu bəyanatın imzalanmasının səbəblərindən biri də dünən qeyd etdiyimiz parlaq qələbəmizdir, tarixi qələbəmizdir, Şuşanın işğaldan azad edilməsidir, Şuşa Qarabağın tacıdır! Şuşanın azad edilməsi həm böyük siyasi, həm böyük strateji, eyni zamanda, çox böyük mənəvi məna daşıyır. Biz Şuşaya qayıtdıq, biz Şuşanı qaytardıq, biz Şuşada yaşayacağıq və işğaldan azad edilmiş digər bütün torpaqlarda həyat qaynayacaq". "Artıq "Qarabağ Azərbaycandır və nida" şüarı qələbəmizin rəmzinə çevrildi",- xalqa müraciətində Azərbaycan Prezidenti deyib və vurğulayıb ki, bir il bundan əvvəl mən bunu demişəm: "Mən fəxr edirəm ki, mənim dediyim ifadə artıq bir milli şüara çevrildi. Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir! Zəngilan bizimdir! Qubadlı bizimdir! Ağdam bizimdir! Laçın bizimdir! Kəlbəcər bizimdir! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!".

### "BU GÜN DÜNYA AZƏRBAYCANLILARI YAŞADIQLARI BÜTÜN ÖLKƏLƏRDƏ BAŞI DİK, ALNIAÇIQ, ÜZÜAĞ GƏZİRLƏR VƏ ÖZ TARİXİ VƏTƏNİ OLAN AZƏRBAYCANLA HAQLI OLARAQ FƏXR EDİRLƏR"

Çünki Vətən müharibəsi müddətində xalqımız hər gün öz rəhbərinin yenilməz qətiyyətinə, siyasi iradəsinə şahidlik etdi. Məhz Prezident, Qalib Sərkərdə İlham Əliyevin ortaya qoyduğu nümunə xalqımızı bu müharibədə qələbəyə ruhlandırdı. Dövlət başçısının vətənpərvərliyi xalqımızı torpaqlarımızın azadlığı uğrunda mübarizədə həmrəy etdi. Siyasi əqidəsindən, statusundan, vəzifəsindən, milli mənsubiyyətindən asılı olmayaraq hər bir Azərbaycan vətəndaşı milli həmrəylik nümayiş etdirdi. Prezident İlham Əliyev 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə dünya azərbaycanlılarına təbrikində bununla bağlı deyib: "Milli dövlətçilik tariximizdə və xalqımızın yaddaşında əbədi yaşayacaq şanlı Zəfər xalq-iqtidar birliyi, ordumuzun yüksək peşəkarlığı və gərgin siyasi-diplomatik fəaliyyət sayəsində əldə edilmişdir". Vətən müharibəsində dünyanın bütün ölkələrində yaşayan azərbaycanlılar da tarixdə görünməmiş dərəcədə fəallıq göstərdilər, daha sıx birləşdilər. Yaşadıqları ölkələrdə Azərbaycanın haqq səsinin eşidilməsi üçün səylərini əsirgəmədilər. Və bu gün Dünya Azərbaycanlılarının V Zəfər qurultayının mədəniyyətimizin beşiyi Şuşada keçirilməsi bir daha mili birlik, həmrəyliyin göstəricisidir. Həmçinin Dünya Azərbaycanlılarının V qurultayının "Şuşa İli"ndə keçirilməsi də Zəfərimizin tarixi təntənəsidir. Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə müraciətində qeyd etmişdir ki, artıq ikinci ildir ki, xalqımız Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni ili ruh yüksəkliyi ilə qeyd edirlər: "Çünki mən bilirəm ki, bu işğal dövrü və işğalla bağlı olan məsələlər xaricdə yaşayan azərbaycanlılara da böyük əzabəziyyət verirdi. Çünki ermənilərlə müxtəlif ölkələrdə ünsiyyətdə olarkən onların təkəbbürlü baxışları əminəm ki, dünya azərbaycanlılarını incidirdi. İndi isə vəziyyət tam fərqlidir. Biz heç vaxt təkəbbürlü olmamışıq, amma hər zaman öz gücümüzü hiss etmişik".

### ŞUŞANIN AZAD OLUNMASI TARİXİ ƏDALƏTİN ZƏFƏRİ, HAQQIN NAHAQ ÜZƏRİNDƏ QƏLƏBƏSİNİN, İŞIĞIN ZÜLMƏT ÜZƏRİNDƏ TƏNTƏNƏSİDİR

Şuşa təkcə coğrafi mənada deyil, həm də mənəviyyatımızın, qürurumuzun ucalığıdır. Bu bir həqiqətdir ki, Şuşanın azad olunması tarixi ədalətin zəfəri, haqqın nahaq üzərində qələbəsinin, işığın zülmət üzərində təntənəsidir. Prezident İlham Əliyevin 2022-ci ili "Şuşa İli" elan etməsi onun tarixi və mədəni sahədə də Ümummilli liderin siyasi kursunu layiqincə davam etdirdiyinin əyani sübutdur. Bir sözlə, 2022-ci il Şuşada Böyük Qayıdışın təntənəsidir. Bu gün Şuşa artıq bərpa və böyük quruculuq dövrünə qədəm qoyub. 2021-ci il 14 yanvar tarixindən - Prezidentin Şuşa səfərindən etibarən Şuşanın bərpası başlandı və qısa müddət ərzində böyük işlər görüldü və görülməkdədir. Şuşanın elektrik təsərrüfatı bərpa edildi, buraya yüksəkgərginlikli xətlər Füzulidən çəkildi, yarımstansiya tikildi. Düşmən Şuşanı tərk edərkən Şuşanın su xətlərini partlatmışdı. Şuşaya suyun verilməsi bərpa olundu. Şuşanın tarixi abidələrinin bərpasına start verildi. Vaqifin məqbərəsi, Vaqifin büstü yenidən açıldı, Üzeyir Hacıbəylinin abidəsi yenidən qoyuldu, Üzeyir Hacıbəylinin dağıdılmış evinin bərpasına başlanıldı, Bülbülün ev muzeyinin açılışı baş tutdu, Natəvan bulağı bərpa edildi. Prezident İlham Əliyevin göstərişi ilə ermənilər tərəfindən güllləbaran edilmiş dahi şəxsiyyətlərimizin - Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün büstləri gətirildi və mərkəzi meydanda qoyuldu. Üç məsciddə təmir-bərpa işləri başlandı. Məscidlərin təmirini yenə də Heydər Əliyev Fondu öz üzərinə götürmüşdür. "Qarabağ" və "Xarıbülbül" otelləri istifadəyə verildi. Şuşanın baş planı təsdiq edildi, yeni yaşayış kompleksinin təməli qoyuldu. Bütün bu kompleks tədbirlər onu göstərir ki, Şuşanın dirçəldilməsi sürətlə gedir və şuşalılar öz doğma yurdlarına qayıdırlar. Bu il Şuşada Böyük Qayıdışın təntənəsi baş tutacaq, uzun müddətlik həsrətdən sonra şuşalılar doğma yurdlarında "Şuşa İli"ndən irəli gələn əhəmiyyətli tədbirləri izləyəcək, fərəhlənəcək və qürurlanacaqlar.

Bu gün Dünya Azərbaycanlılarının V Zəfər qurultayı "Şuşa İli"ndə mədəniyyətimizin beşiyi olan Şuşada keçirilməsi bir daha harada yaşamasından asılı olmayaraq dövlət başçımızın dediyi kimi: "Çünki müstəqil Azərbaycan bütün azərbaycanlıların vətənidir. Bizim bir vətənimiz var - Azərbaycan! Bizim bir dilimiz var - Azərbaycan dili! Bizim ümumxalq ideologiyamız var - Azərbaycançılıq məfkurəsi! Mən arzu edirəm ki, dünyada yaşayan bütün azərbaycanlılar həmişə bir yerdə olsunlar. Həmişə bilsinlər ki, onların arxasında güclü Azərbaycan dövləti dayanır və onlar hər zaman Azərbaycan dövlətinə arxalana bilərlər".

Bir sözlə, Dünya Azərbaycanlılarının Şuşada bir araya gəlməsinin böyük tarixi, siyasi və mənəvi əhəmiyyəti olacaq. Çünki Azərbaycan qalib ölkədir və diaspor fəaliyyəti Qələbəmizin daha da möhkəmlənməsi istiqamətində dövlətimizin başçısının apardığı siyasi kursuna uyğun formalaşdırılıb. Sonda Dünya Azərbaycanlılarının "Şuşa İli"ndə mədəniyyət paytaxtımız Şuşada keçirilən V Zəfər qurultayının işinə uğurlar arzulayır, dövlət və millətimiz üçün yeni qələbələrə yol açmasını diləyirik.

**RƏFİQƏ KAMALQIZI**

TƏRS BAXIŞ+ÖZƏL

# Şuşada Qurultay: ermənilər isterik həddə və aqoniyada!




**Dünya azərbaycanlılarının V qurultayının ilk dəfə işğaldan azad edilmiş və Qarabağımızın mirvarisi hesab edilən Şuşa şəhərində keçirilməsi erməniləri isterik həddə çatdırıb və onlar necə deyərlər, içlərini gəmirə-gəmirə qalmaqla yanaşı, sözün əsl mənasında, özlərinə yer tapa bilmirlər. Məsələ həm də ondadır ki, Şuşaya Azərbaycan diasporunun 65 ölkəsini təmsil edən 400-dən çox nümayəndəsi axın edir..!**

Lakin Ermənistanla yanaşı, Qarabağdan rədd ediləcəklərini çox yaxşı, hətta əla bilən separatçı-cinayətkar rejimin baş quldurları da aqoniya vəziyyətinə mübtəla olublar. Məlumata görə, məhz qarabağlı ermənilərə məxsus cinayətkar klanın mətbu orqanı hesab edilən və SSRİ dövründə Ermənistan SSR MK-nın Kommunist partiyasının rəsmi media qurumu sayılan "Qolos Armenii" (Ermənistanın səsi) qəzeti "Paşoinyanı oxuyun və ya onunla Bakı mətbuatını oxuyun, sonra da küçələrə çıxın" sərlövhəli material dərc edib. Həmin məqalə dərhal digər müxalifət ruporlarına məxsus media orqanlarında da çap olunub.


ГОЛОС АРМЕНИИ
Политика 2022-04-19 09:40 Зара ГЕВОРКЯН
ЧИТАЙТЕ БАКИНСКУЮ ПРЕССУ И ВЫХОДИТЕ НА УЛИЦУ!
New
ПОЛИТИКА 11:48 19/04/2022 АРМЕНИЯ



## Ən qısa zamanda Azərbaycanın həmin əraziləri də separatçı-cinayətkarlar yığnağından 100%-lik hədlə təmizlənəcək!

Belə bir mühitdə Robert Koçaryanla Serk Sarqsyanın qələmbazları da öz mətbuatlarında "Paşinyan Qarabağı təslim edir" tipli başlıqlı məqaslələri ilə yaxa-başlarını yırtırlar və unudurlar ki, Qarabağ artıq 2020-ci ilin payızında azad edilib və ermənilərin bundan sonra prinsipcə "təslim" etməyə nələri isə qalmayıb. Və əgər onlar Xankəndi və daha bir neçə anklavın onlarda qalacağını düşünürlərsə, burada da çox böyük səhvə yol verirlər. Ən qısa zamanda Azərbaycanın həmin əraziləri də separatçı-cinayətkarlar yığnağından 100%-lik hədlə təmizlənəcək! Bəzi pessimist ruhlular necə ki, gecə yatıb, səhər Azərbaycanın Şanlı Ordusunun düşmənə qarşı əks-hücum əməliyyatlarına başlamasının şahidlərinə çevrildilərsə, növbəti addımların da şahidlərinə çevriləcəklər, özü də mütləq.

## Onları ən çox təlaşlandıran məsələ isə düz XANKƏNDİNİN üstündə, ŞUŞA şəhərində dünya azərbaycanlılarının beşinci qurultayının keçirilməsidir!

Erməniləri narahat edən daha bir reallıq onların dünyadakı diasporlarının susqun qalması, uzağı mızıldanması və heç nə etməməsidir. Əbəs deyil ki, "Spryük" adlandırılan erməni diasporu bu dəfə revanşist ermənilərin hədəfinə tuş gəlib və eyni zamanda, Paşinyanın diasporu məhv etdiyi bildirilir. "Azərbaycanlılar Şuşada yerləşər-yerləşməz artıq öz qurultaylarını keçirirlər", deyə erməni mediası yazır. Onları ən çox təlaşlandıran məsələ isə düz XANKƏNDİNİN üstündə, ŞUŞA şəhərində dünya azərbaycanlılarının beşinci qurultayının keçirilməsidir!

Beləliklə, isterika və aqoniya sintezinin bir arada cəmləşməsi faktoru həm də təəccüblü görünmür. İlk növbədə, saç-başlarını yolan revanşistlər iyirmi ildən çox bu ölkəyə rəhbərlik ediblər və yalnız xaricdəki diasporaların maliyyə yardımları altında həm yaşayıb, həm də ciblərini doldurublar, ac-yalavac, qaraçı halındakı xalqı isə sadəcə öz məqsədləri naminə sui-istifadə ediblər.

## Növbəti qurultay XANKƏNDİDƏ keçiriləcək!

Və nəhayət - Azərbaycan reallığının qarşısında diz çökdüyünü, məhv olduğunu anlayan hay-şivənçi erməni naturallığı başqa seçim yolunu da görmürlər. Artıq onların qarşılarında bir danılmaz fakt dayanır - Azərbaycan işğaldan azad edilmiş ərazilərini yenidən qurur, inşa edir, abadlaşdırır, dirçəldir, ayağa qaldırır. Üstəlik, bütün dünyanın azərbaycanlıları ŞUŞAYA toplaşırlar - həm qurultay keçirməyə, həm də Cıdır Düzündən, Şuşa Qalasından Xankəndiyə səs salmaq üçün. Çünki növbəti qurultayın (növbədənkənar da ola bilər) XANKƏNDİDƏ keçiriləcəyinə də 100 deyil, 1000 deyil, heç 10 min, 100 min də deyil, 1 milyon % (!!!) olan inam mövcuddur!

***Rövşən RƏSULOV***




## Qırğızıstan Prezidenti Azərbaycana rəsmi səfərə gəlib

Qırğız Respublikasının Prezidenti Sadır Japarov aprelin 19-da Azərbaycan Respublikasına rəsmi səfərə gəlib. SİA xəbər verir ki, Qırğız Respublikasının Prezidenti Sadır Japarovu və xanımı Ayqul Japarovanı hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Elnur Məmmədov və digər rəsmi şəxslər qarşılayıblar.

## Prezidentin yeni Sərəncamı 4500-ə yaxın şəxsə şamil olunacaq

Prezident İlham Əliyevin imzaladığı yeni "1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" 19 aprel 2022-ci il tarixli Sərəncam həmin kateqoriyadan olan vətəndaşlara dövlət başçısının yüksək diqqət və qayğısının növbəti təzahürüdür.



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən SİA-ya verilən məlumata görə, Sərəncama əsasən, İkinci Dünya müharibəsində Qələbənin 77-ci ildönümü ilə əlaqədar həmin müharibənin iştirakçısı olmuş 96 nəfərin hər birinə 1500 manat məbləğində birdəfəlik yardım ödəniləcək.

Həmçinin İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadları, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslər, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçiləri, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslər, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarından ibarət 4395 nəfərin hər birinə isə 750 manat məbləğində birdəfəlik yardım veriləcək.

Beləliklə Sərəncam 4500-ə yaxın şəxsi əhatə edəcək. Birdəfəlik maddi yardımların verilməsi üçün Sərəncamla Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 3,5 milyon manat ayrılıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən birdəfəlik maddi yardım İkinci Dünya müharibəsi iştirakçılarının və digər müvafiq şəxslərin bank hesablarına köçürüləcək.

# Dövlət və cəmiyyət arasında körpü

Dövlət və qeyri-dövlət qurumlarında, o cümlədən özəl strukturlarda şəffaflığın təmin edilməsi üçün ictimai nəzarət institutlarının fəaliyyətinə ehtiyac var. Son zamanlar xüsusən qeyri-hökumət təşkilatları tərəfindən ictimai nəzarətin həyata keçirilməsi hallarına tez-tez rast gəlirik. Bəs, ictimai nəzarət media qurumlarında necə həyata keçirilir? Bu suala cavab vermək üçün ilk olaraq yeni media anlayışını qavramaq lazımdır. Bəziləri yeni medianın yaranmasını yalnız texnikanın inkişafı ilə əlaqələndirir, digərləri isə daha yaradıcı mühitin formalaşmasını yeni medianın təzahürü hesab edir. Əslində, medianın "yeni" adlandırılmasına bunların hər ikisi təsir edir. Texnologiya sürətlə inkişaf edir, insanlar bir-biri ilə fərqli formada ünsiyyətə girir və bu, əlbəttə ki, medianı da yenidən şəkillləndirir. Mövcud dəyişiklik hər ölkədə fərqli üslubda təzahür edə bilir. Əlbəttə, bunun səbəbi də mədəniyyətlərin müxtəlifliyidir. İstənilən halda yeni bir dövrdə yaşayırıq və bu dövrün insanları problemlərini daha çox sosial şəbəkələrdə və internet mediasında işıqlandırır. Medianın inkişaf etdirilməsi üçün ictimai nəzarət institutlarının mühüm rolu var.



Yeni medianı anlamaq üçün öncə yeni media mühitinin nə olduğunu anlamaq gərəkdir. Əvvəlcə, hər şey çox qarışıq görünür. Adama elə gəlir ki, istifadəçilərin yaratdığı xaosda bir düzən, qayda axtarmaq mənasızdır. Elə buna görə də bu mühitdə cərəyan edən məlumatlar iftira da ola bilir, yalan da. Onlara güvənməzdən öncə məlumatlara tənqidi yanaşmaq, onları incələmək məsləhət görülür. Yeni etik öhdəliklərlə yanaşı, göründüyü kimi dəyişməz öhdəliklər var olmaqdadır. Yəni yeni media mühiti ilk növbədə seçimdir. Bu mühitdə iftiradan nifrətə, nifrətdən güvənsizliyə doğru da yol getmək olar və əksinə, yeni medianın açdığı fürsətdən yararlanaraq təşəbbüs irəli sürərək sosiallaşmaq olar.

Bəs yeni mediada etik öhdəliklərə əməl olunurmu? Biz oxuduğumuz məlumatı o dəqiqə düzgün qəbul edirik. Bu məlumatın düzgün olmamasına, etik kodekslərə riayət etməməsinə, yalan və ya iftira olmasına baxmırıq. Yəni ictimai nəzarət mexanizminin düzgün həyata keçirmək üçün ilk öncə ictimaiyyətin özü məlumatı oxuyub, düzgün qavraması və bu məlumatı yayarkən dəqiq olmasına önəm verməlidir. İnternetə ayrı-ayrı fərdlər şəklində daxil olsaq da, birlikdə hansısa icma və ya cəmiyyətik.

İctimai nəzarətin formalaşdırılmasında medianın oynadığı rol həm də cəmiyyətin özünün hərəkətlənməsinə səbəb olur. Media bir növ öndə gedərək insanları, ayrı-ayrı fərdləri ictimai nəzarət məsələlərində fəallaşdırır. İnsanlar bir problem haqqında məlumatı mediada gördükdə istər-istəməz səfərbər olurlar. Həmin problemin aradan qaldırılması üçün həmrəylik nümayiş etdirirlər. Göründüyü kimi burada hərəkətverici qüvvə mediadır. Bu baxımdan ictimai nəzarətin formalaşdırılmasında medianın rolu əvəzsizdir.

Sosial şəbəkələrdən sui-istifadə edənlərə görə həqiqi medianın xidmətləri gözə dəymir. Azərbaycanda media institutu daimi yenilənmə və dəyişmə prosesindədir. Azərbaycanda ictimai nəzarətin düzgün formalaşmasına həssas yanaşılır.

Ölkə rəhbəri İlham Əliyev ictimai nəzarətlə bağlı fikirlərində vurğulayıb ki, İctimai nəzarət bir çox məmurları cinayət xarakterli işlərdən çəkindirəcək: "Ona görə ictimai nəzarətin hansısa institusional formatı da gərək işlənilsin. Sizin, media nümayəndələrinin bu sahədə çox böyük rolunuz var. Deyə bilərəm ki, mən bəzən xoşagəlməz hallar haqqında sizdən öyrənirəm, sizdən bu xəbəri tuturam və dərhal reaksiya verilir. Deyə bilərəm ki, bir çox hallarda mediada olan məlumatlar təsdiqlənir. Elə məlumatlar var ki, onlar qərəzli xarakter daşıyır. Amma məlumatların mütləq əksəriyyəti təsdiqlənir və dərhal ölçü götürülür. Ona görə dövlət məmurları bilməlidirlər, onların işinə təkcə Prezident Administrasiyası yox, həm ictimaiyyət, həm də media nümayəndələri nəzarət edir".

Media haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, "Məlumat azadlığı haqqında", "Fərdi məlumatlar haqqında", "İnformasiya əldə etmək haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının qanunlarından, media sahəsini tənzimləyən Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarından, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

Ölkəmizdə İnternet-media hələ formalaşma mərhələsində olsa da, Azərbaycanla bağlı onlayn media resursları: bloqlar, forumlar, xəbər portalları kifayət qədərdir. Hazırda ölkəmizdə internet-media resurslarına nəzarət etmək üçün Mətbuat Şurasının (MŞ) tərkibində İnternet media resursları üzrə komissiya fəaliyyət göstərir. Ölkə mediasının monitorinqi, xarici ölkələrin mediasının monitorinqi, sosial medianın monitorinqi, xəbər agentliklərinin monitorinqi, KİV reklamlarının monitorinqi daxildir.

Aparılan araşdırmalar bu gün media monitorinqin vacibliyini sübüt edir. Media ictimai rəyə və insanların seçiminə birbaşa təsir etdiyi üçün hazırda bütün dünyada media mütəxəssislərinin əsas hədəflərindən biri medianın müsbət təsirlərindən yararlanmaq və onları doğru məqsədlər üçün istifadə etməkdir. Bu məqsədlə KİV-lər öz strategiyalarını düzgün qurmaq üçün monitorinq aparmalı, səmərəli qərarlar qəbul etməklə saytın reputasiyasının yüksəlməsinə nail ola bilərlər.

"Media ictimai nəzarət funksiyasını tam şəkildə yerinə yetirə bilmir". **Bu sözləri SİA-ya açıqlamasında Jurnalist Ekspert Mərkəzinin sədri Ceyhun Musaoğlu deyib.**



Ceyhun Musaoğlu bildirib ki, mediada bugünkü dövrün tələbinə uyğun fəaliyyət göstərən saytlar olsa da xəbərin tez dövr etməsi bəzən imkan vermir ki, ictimai nəzarət funksiyası səmərəli həyata keçirilsin: "Çünki jurnalistlər daim yeni xəbər hazırlamaq və axtarmaqla məşğuldur. Bu zaman ictimai nəzarət unudularaq ikinci plana atılır. İctimai nəzarəti düzgün yerinə yetirmək üçün jurnalistin araşdırmasına ehtiyac var. Bu mənada ictimai nəzarəti yerinə yetirməli olduğu media daha çox funksiyalarını sosial şəbəkələrə verib. Sosial şəbəkələrdə isə mütəşəkkil və peşəkar şəkildə yerinə yetirə bilmir. Tutaq ki, hadisə baş verən zaman sosial şəbəkələrdə yayılır lakin, hadisənin təfərrüatları tam araşdırılmır. Bu gün daha çox məişət xarakterli problemlər daha çox ictimailəşdirilir".

**Mövzu ilə bağlı Jurnalistlərin Həmkarlar İttifaqının sədri, Media eksperti Müşfiq Ələsgərli fikirlərini bildirib:** "Media haqqında nəzəriyyələrdə bir çox funksiyalar göstərilir. Bunların arasında xüsusi olaraq ikisi fərqləndirilir. Bunlardan biri medianın cəmiyyətin ehtiyac duyduğu informasiyanı tapması və cəmiyyətə catdırmaq funksiyasıdır. İkincisi missiyası isə dövlət və hakimiyyət qurumları üzərində ictimai nəzarət funksiyasını yerinə yetirməsidir. Bu iki cəhət medianın ən mühüm funksiyaları kimi qəbul edilir. Təbii, ki bu baxımdan medianın əsas işi bu nəzəriyyəyə uyğun olaraq cəmiyyətlə işləyən müxtəlif qurumlar üzərində ictimai nəzarət funksiyanı yerinə yetirməkdən ibarətdir. Azərbaycanda bu gün medai mühiti şəffaf və demokratikdir. İnformasiya vasitələrinin sərbəst və azad şəkildə fəaliyyət göstərib öz funksiyalarını yerinə yetirməsi üçün hər cür şərait qurulmuşdur. Azərbaycanda media mühiti KİV-ə öz missiyalarını yerinə yetirmək üçün kifayət qədər imkan yaradır. İlk öncə onu deyim ki, media mühitinin mühüm şərtlərindən biri ölkədə qanunvericilik bazasının təkmin olmasıdır. Azərbaycanda media qanunvericiliyi demokratik ruhludur və medianın sərbəst azad fəaliyyəti üçün imkan yaradır. Qeyd edim ki, bu il fevral ayının 8-dən qüvvəyə minən "Media haqqında yeni qanun" Azərbaycanda KİV-nin subyektlərinin sərbəst azad fəaliyyət göstərməsi və onların təhlükəsizliyinin təminatı üçün bütün aspektləri özündə cəmləyib. Azərbaycan mediasının institutlaşması və peşəkarlaşması üçün kifayət qədər əlverişli şərait var. Azərbaycan dövləti medianın müstəqilliyinin təmin olunması peşəkarlaşması və institutlaşması üçün çoxsaylı proqramlar icra edir. Azərbaycan yeganə ölkələrdəndir ki, burada KİV inkişafına dövlət dəstəyi konsepsiyası mövcuddur. Bu konsepsiya əsasında KİV subyektlərinə hər cür dəstək göstərilir ki, onlar peşəkarlaşaraq institutlaşsınlar. Media üçün mühüm olan digər şərt təhlükəsizliyin qorunmasıdır. Azərbaycanda medianın azad və təhlükəsiz fəaliyyət göstərməsi üçün də hər cür şərait yaradılıb. Eyni zamanda son iki il müddətində Media İnkişaf Agentliyinin xətti ilə media subyektləri o cümlədən informasiya sahibləri arasında geniş təlimatlandırma işləri həyata keçirilir. Bugünlərdə rəsmi qurumların mətbuat xidmətləri üçün xüsusi təlim keçirilir. Media İnkişaf Agentliyinin keçirdiyi bu təlimlər imkan verir ki, həm informasiya verən qurumlar, həm də informasiya alan qurumlar, öz subyektlərini yüksək səviyyədə quraraq missiyalarını həyata keçirsinlər. Azərbaycanda media mühiti liberal və demokratik olduğu üçün Azərbaycan mediası üçün hər cür şərait yaradılıb".



"Bu gün həqiqətən də media ictimai nəzarət mexanizmini yerinə yetirən ən fəal institutlardan biri kimi özünü göstərir". **Bu sözləri SİA-ya açıqlamasında Səs Media Qrupunun rəhbəri Bəhruz Quliyev deyib.**

Bəhruz Quliyev bildirib ki, vətəndaş cəmiyyəti institutları da bu prosesə qoşulurlar: "Vətəndaş cəmiyyəti institutları dedikdə QHT-lər, siyasi partiyalar və s. nəzərdə tutulur. Media da ictimai nəzarət funksiyasını yerinə yetirir. İlk növbədə qeyd edim ki, Azərbaycan mediası kifayət qədər zəngin qanunvericilik bazası ilə əhatələnib. Yəni medianın inkişafı üçün kifayət qədər demokratik qanunlar və şəffaf mühit var. Dünyadakı yeni trendləri Azərbaycan mediası özündə birləşdirə bilir. Ona görə ki, hüquqi bazamız yenilənib və əlavələr və dəyişikliklər olunub. Dəyişikliklərin özü bizi yeniliklərdən xəbərdar edir. Bu hüquqi baza imkan verir ki, baş verən hadisələri media tam əks etdirsin. Media cəmiyyətin güzgüsüdür. Əgər media cəmiyyətin güzgüsüdürsə, onda dövlət və cəmiyyətdə baş verən hadisələri media yaxşı və pis olmasından asılı olmayaraq işıqlandırmalıdır. Medianın bu hadisələri işıqlandırması və cəmiyyətə əks etdirməsi ictimai nəzarəti yaradır. Hər bir mənfi tendensiyanın ortadan qaldırılması istiqamətində media maarifləndirmə işləri aparır. Bu iş hər bir medianın əsas prisipidir. Həm referendumda hüquqi bazanın formalaşması, həm Konstitutsiyanın yeni maddələrindən irəli gələn yeni qanunların qəbulu, xüsusilə "Media haqqında" yeni qanunun qəbulu göstərdi ki, Azərbaycan mətbuatı baş verən hadisələrə müdaxilə etmək gücündədir və buna heç bir maneə yoxdur. Mətbuat özü hadisəni detallı şəkildə incələməli və obyektiv işıqlandırmağı bacarmalıdır. Mətbuat hadisələri görməli və cəmiyyətə çatdırmalıdır. Mətbuat cəmiyyət və dövlət arasında körpü rolu oynamalıdır.



Ona görə ki, media yalnız nəzarət mexanizmi kimi qurumlara nəzarət etmir. Cəmiyyətdə və dövlətdə baş verən bütün hadisələri işıqlandırır. Bu gün mətbuatda müəyyən problemlər olsa da kifayət qədər öz missiyasını yerinə yetirir. Ötən illərlə müqayisədə mətbuatın özünü səhmanlaşdırması prosesi sürətlə həyata keçirilir. Baxmayaraq ki, qlobal dünyanın etiva etdiyi zəruri şərtlər bu prosesə müdaxilə edir. İnternet resursları dünyada və Azərbaycanda artıq kütləvi media statusu qazanıb. Sosial şəbəkələrdə günün hadisələri ictimailəşir. Sosial şəbəkələrdə şəxsin özəl həyatının işıqlandırılması düzgün deyil. Bəzən məmurların və ya vətəndaşların şəxsi həyatı ictimailəşir. Bu isə Konsititutsiyaya ziddir. Qanunlarda da gizli çəkiliş edərək məlumatların ictimailəşməsi yalnışdır. Yəni ki, ictimai nəzarət o demək deyil ki, hadisələrin hamısı işıqlandırmaq lazımdır. İlk öncə hadisənin cəmiyyətə nə cür təsir etməsi düşünülməlidir. Mətbuat eyni zamanda psixoloji silahdır. Mətbuat həm də mənfi hallara səbəb ola bilər. İctimai fikri yayındıra və ya aldada bilər. Bəzən elə informasiyalar olur ki, dövlətlə cəmiyyət arasında olan bağı sındıra bilər və ya sarsıntı yarada bilər. Ona görə mətbuat bu cür hadisələri işıqlandırarkən həssas olmalıdır".

***Qönçə Quliyeva***

# Prezident İlham Əliyev qiymətləri qaldıran sahibkarlara

# XƏBƏRDARLIQ ETDİ

TƏHLİL

Etibarlı ərzaq təminatı hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlılığının başlıca şərtidir. Ona görə də cəmiyyətin hər bir üzvünün əsas ərzaq məhsullarına olan tələbatının tam ödənilməsi üçün davamlı olaraq müvafiq tədbirlərin həyata keçirilməsi çox vacibdir. Azərbaycanda ərzaq təhlükəsizliyinin yüksək səviyyədə təmin olunması yürüdülən siyasətin başlıca prioritetlərindən biridir. Azərbaycan Prezidenti İlham Əliyev aprelin 12-də bu ilin birinci rübünün yekunlarına həsr olunmuş müşavirədə qiymətləri qaldıran sahibkarlara xəbərdarlıq etdi: "Mənə verilən məlumata görə, son üç ayda inflyasiya 18 faizə qalxıb. Bu, əlbəttə ki, yüksək rəqəmdir. Amma onu da bilməliyik ki, bunun bir hissəsi idxal edilmiş inflyasiyadır. Çünki dünyada ərzaq məhsullarının və digər məhsulların qiymətinin artması, təbii ki, daxili qiymətlərə də təsir edir. Ancaq eyni zamanda, onu da bildirməliyəm ki, üç ayda əhalinin gəlirləri təxminən 20 faiz artıb və əgər biz inflyasiyanı əhalinin gəlirləri ilə müqayisə etsək, burada yenə də real gəlirlər artmış olur. Ancaq o demək deyil ki, biz buna laqeyd yanaşmalıyıq. Ona görə antiinflyasiya tədbirlərinin görülməsi, gücləndirilməsi zəruridir. Əlbəttə ki, burada əsas məsələ süni qiymət artımının qarşısının alınmasıdır. Çünki belə hadisələrdə, belə geosiyasi vəziyyətdə bəzi natəmiz sahibkarlar bundan istifadə etməyə çalışırlar və heç bir əsas olmadan qiymətləri artırırlar. Buna xüsusi diqqət göstərilməlidir".

### "Bəzi natəmiz sahibkarlar bundan istifadə etməyə çalışırlar və heç bir əsas olmadan qiymətləri artırırlar"




### "Dünyada ərzaq məhsullarının qiymətləri kəskin artır"

Müşavirə zamanı son aylarda qiymət artımının baş verməsinə xüsusi olaraq toxunan Prezident İlham Əliyev bildirdi ki, bu gün dünyada ərzaq məhsullarının bahalaşması daxili qiymətlərə də təsirsiz ötüşmür hazırda dünyada ərzaq məhsullarının qiymətləri kəskin artır: "Bu proses bir neçə ay bundan əvvəl başlayıb. Əlbəttə ki, Rusiya-Ukrayna müharibəsi bunu daha da sürətləndirib, xüsusilə nəzərə alsaq ki, Rusiya və Ukrayna dünyada aparıcı taxıl ixracatçıları arasındadırlar və digər ərzaq məhsullarını dünya bazarlarına ixrac edirlər. İndi artıq təbii qıtlıq hiss olunur və hiss olunacaq. İndiki şəraitdə ərzaq qiymətlərinin qalxması və süni qiymət artımının qarşısının alınması məsələləri, hesab edirəm ki, ən vacib məsələlərdən biridir". Dövlət başçısı həm də ərzaq ehtiyatının yaradılması, süni qiymət artımının qarşısının alınması ilə bağlı ciddi tapşırıqlar verdi. Lakin bəllidir ki, bunun bir hissəsi idxal edilmiş inflyasiyadır. Çünki dünyada ərzaq və digər məhsulların qiymətinin artması, təbii ki, daxili qiymətlərə də təsirsiz ötüşmür. Prezidentin söylədiyi kimi, belə hadisələrdə, geosiyasi vəziyyətdə bəzi natəmiz sahibkarlar bundan istifadə etməyə çalışırlar və heç bir əsas olmadan qiymətləri artırırlar. Ona görə də dövlət başçısı süni qiymət artımının qarşısının alınması ilə bağlı aidiyyəti qurumlara ciddi tədbirlərin görülməsini tapşırdı.

### Vüqar Bayramov: "2022-ci ilin birinci rübü üçün ən prioritet məsələlərdən biri qiymət artımına qarşı mübarizə və antiinflyasiya tədbirlərinin gücləndirilməsi olub"

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov qəzetimizə bildirib ki, 2022-ci ilin birinci rübü üçün ən prioritet məsələlərdən biri qiymət artımına qarşı mübarizə və antiinflyasiya tədbirlərinin gücləndirilməsi olub: "Dünyada, eləcə də region bazarında qiymət artımı müşahidə olunur. Bu da idxalın inflyasiyasının aktivləşməsinə gətirib çıxarır. Dövlət Statistika Komitəsinin elan etdiyi rəqəmlərdə də inflyasiya səviyyəsinin birinci rüb üçün ikirəqəmli olduğu görünür". V.Bayramovun fikrincə, istehlak bazarında aparılan monitorinqlər göstərir ki, qiymətlərin süni şəkildə artırılması tendensiyası bu ilin birinci rübündə də baş verib. Buna görə süni qiymət artımına qarşı ciddi mübarizə aparılmalı və bu, antiinflyasiya tədbirlərinin əsas elementlərindən birinə çevrilməlidir. Bir tərəfdən sahibkarların təşviq edilməsi ilə bağlı yeni mexanizmlərin tətbiqinə başlanılıb, digər tərəfdən də kənd təsərrüfatında istehsalın, emalın güzəştli kreditlər vasitəsilə maliyyələşdirilməsi, eyni zamanda həmin məhsulların emalı ilə bağlı verilən kredit və subsidiyaların faizinin bir hissəsinin dövlət tərəfindən ödənilməsi ilə bağlı qərar qəbul edilib. Bu da xərcin azaldılması baxımından vacibdir.

### Aydın Hüseynov: "İşğaldan azad edilmiş torpaqların becərilməsi ərzaq təhlükəsizliyimizin təmininə töhfə verəcək"

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Aydın Hüseynov da hazırda bir çox ölkələrdə ərzaq məhsullarının qiymətində artım müşahidə olunduğunu söyləyib. Millət vəkili qeyd edib ki, Azərbaycanda qiymət artımı kəskin deyil, bununla belə bu fakt var: "Elə ərzaq məhsulları var ki, digər ölkələrdən gətirilir, buna görə qiymət də idxal olunur. İxrac edən ölkə məhsulu hansı qiymətə satırsa, biz də ən zəruri ərzaq məhsullarını o qiymətə almağa məcburuq". Deputat bildirir ki, taxıl və taxıl məhsullarının qiymətində artım var. Bu, həm də qlobal istiləşmə ilə bağlıdır. Digər tərəfdən Ukrayna və Rusiya arasında gedən müharibə bu proseslərə təsirini göstərir. Dövlət tərəfindən bunun qarşısının alınması, ərzaq ehtiyatının artırılması, eləcə də daxili bazarda qiymətlərin yüksək həddə qalxmaması istiqamətində müvafiq addımlar atılır. Bu addımlardan biri də subsidiyaların verilməsidir. Taxıl və taxıl məhsullarının satışı 2024-cü ilə qədər əlavə dəyər vergisindən (ƏDV) azad edilib. Digər tərəfdən hər ton taxıl üçün subsidiyanın məbləği artırılıb. Bir sözlə, Azərbaycan Prezidenti İlham Əliyev hər zaman olduğu kimi, yenə də əhalini narahat edən məsələni gündəmə gətirərək süni qiymət artımının qarşısının alınması istiqamətində ciddi tapşırıqlarını verib. İnanırıq ki, yaxın günlərdə bu məsələ ilə bağlı vəziyyət öyrəniləcək və dövlət Prezidentin verdiyi tapşırıqlar üzrə bu istiqamətdə lazımi tədbirləri görüləcək və bəzi natəmiz sahibkarlar öz cəzasını alacaqdır.

**RƏFİQƏ HÜSEYNOVA**

# Azərbaycanda multikultural dəyərlər daha da inkişaf etdirilir

## *Dövlət başçısının Sərəncamı ilə dini qurumlara maliyyə yardımı göstərilir*

Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi ölkəmizdə yaşayan ayrı-ayrı xalqlar və dinlər arasında qarşılıqlı hörmət və etimada əsaslanan yüksək birgəyaşayışın, hökm sürən tolerantlıq mühitinin məntiqi nəticəsidir. Bu gün Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti Cənab İlham Əliyev bütün sahələrə olduğu kimi, bu sahəyə də ayırdığı diqqət nəticəsində ölkəmizdəki multikultural mühit dünya üçün nümunəyə çevrilib. Dövlətin dinə, eləcə də ölkədə fəaliyyət göstərən fərqli dini konfessiyalara və icmalara münasibəti hər zaman diqqətdədir. Ölkəmizdə mövcud dini konfessiyaların fəaliyyətini dəstəkləmək məqsədilə "Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı dünyada nümunəvi tolerantlıq məkanına çevrilmiş ölkəmizdə multikultural dəyərlərin daha da inkişaf etdirilməsi, habelə etnik-dini müxtəlifliyin qorunub saxlanılması dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil etməsini bir daha təsdiqləmiş oldu. Dövlət-din münasibətlərinin davamlı olaraq təkmilləşdirilməsi, tolerantlıq və mədəni müxtəliflik ənənələrinin təbliği və təşviqi cəmiyyətdə milli-mənəvi həmrəyliyin güclənməsinə və qarşılıqlı anlaşma münasibətlərinin ahəngdar inkişafına xidmət edir.

Dövlət başçısını Sərəncamına əsasən, Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Qafqaz Müsəlmanları İdarəsinə 1,0 (bir) milyon manat, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna 350,0 (üç yüz əlli) min manat, Bakı şəhəri Dağ yəhudiləri dini icmasına 350,0 (üç yüz əlli) min manat, Avropa yəhudilərinin Bakı dini icmasına 350,0 (üç yüz əlli) min manat, Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumuna 350,0 (üç yüz əlli) min manat və Azərbaycan Respublikasının Alban-Udi xristian dini icmasına 350,0 (üç yüz əlli) min manat, habelə digər qeyri-islam dini icmalarına maddi dəstək məqsədilə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fonduna 350,0 (üç yüz əlli) min manat ayrılıb.

Əlbəttə ki, Azərbaycandakı multikulturalizm mühiti müxtəlif xalqların və etnik qrupların dilinin, dininin və ümumilikdə mənəvi mədəniyyətinin inkişafına geniş imkanlar yaradır. Azərbaycanda dövlət-din münasibətləri tənzimlənib, dini sahədə sabitliyə nail olunub, konfessiyalar arasında dözümlülük mühiti dövlət səviyyəsində qorunub saxlanılır. Tolerantlıq mühiti dövlət-din konsepsiyasına uyğun daha da möhkəmlənib, bu sahə də dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Müxtəlif tarixi dövrlərdə Azərbaycan ərazisində məskunlaşmış dini-etnik qruplar burada özlərini nəinki yad hesab edib, hətta yerli əhali ilə qaynayıb-qarışıb, qohumluq əlaqələri qurublar. Ölkəmizdə dözümlülük ənənələri qorunub saxlanılır. Ulu Öndər Heydər Əliyev deyirdi: "Biz azərbaycanlılar islam dini ilə fəxr edərək, eyni zamanda heç vaxt başqa dinlərə qarşı mənfi münasibət göstərməmişik, düşmənçilik etməmişik, ədavət aparmamışıq və heç bir başqa xalqı da öz dinimizə itaət etməyə məcbur etməmişik. Ümumiyyətlə, başqa dinlərə dözümlülük, başqa dinlərlə yanaşı və qarşılıqlı anlaşma şəraitində yaşamaq islam dəyərlərinin xüsusiyyətidir. Bu, tarix boyu Azərbaycanda da, Qafqazda da öz əksini tapıbdır. Azərbaycanda islam dini ilə yanaşı xristian dini də, yəhudi dini də əsrlər boyu yaşayıb və indi də yaşayır. Qafqazda da bu mənzərə var. Hesab edirik ki, insanlar hansı dinə, hansı mədəniyyətə mənsubluğundan asılı olmayaraq, bütün başqa mədəniyyətlərə, dinlərə, mənəvi dəyərlərə də hörmət etməli, o dinlərin bəzən kiməsə xoş gəlməyən adət-ənənələrinə dözümlü olmalıdırlar".

Ölkədə dini durum, bu sahədə mövcud problemlər, zərərli təriqətlərin təbliği, dini icmaları narahat edən məsələlər dərindən öyrənilir və zaman keçdikcə onların həllində müsbət nəticələr əldə olunur. Bu gün ölkəmizdə 2250 məscid mövcuddur, 14 kilsə, 7 sinaqoq fəaliyyət göstərir. Bununla yanaşı, ölkə ərazisində 748 pir və ziyarətgah fəaliyyət göstərir.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 10 oktyabr 2017-ci il tarixli Fərmanı ilə ölkədə mövcud dini konfessiyaların dəstəklənməsini, mənəvi dəyərlərin qorunması və inkişafını, habelə bu sahəyə dövlət dəstəyinin gücləndirilməsini təmin etmək məqsədi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu fəaliyyət göstərir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub saxlanılmasını və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksək ixtisaslı kadrların hazırlanmasını təmin etmək məqsədilə Azərbaycan İlahiyyat İnstitutu yaradılıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2 iyun 2020-ci il Sərəncamı ilə ölkəmizdə dini qurumlara maliyyə yardımının göstərilməsi məqsədi ilə dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Qafqaz Müsəlmanları İdarəsinə 2 milyon manat, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna 350 min manat, Bakı şəhəri Dağ yəhudiləri dini icmasına 350 min manat, Avropa yəhudilərinin Bakı dini icmasına 150 min manat, Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumuna 150 min manat və Azərbaycan Respublikasının Alban-Udi xristian dini icmasına 150 min manat, habelə digər qeyri-islam dini icmalarına maddi dəstək məqsədilə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fonduna 100 min manat ayrılmışdır. Dövlət başçısının bu və ya digər sərəncamları Azərbaycanda dinlər arasında yaranan dözümlülük və tolerantlıq münasibətlərinin bütün dünya ölkələri üçün nümunə olduğunu bir daha təsdiqləyir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# MEDİA silsilə seminarlara davam edir

***Medianın İnkişafı Agentliyi ilə ADA Universitetinin birgə imzaladığı əməkdaşlıq memorandumu çərçivəsində "Media və kommunikasiya siyasəti medianın gözü ilə" mövzusunda seminarlar davam edir. SİA xəbər verir ki, MEDİA Agentliyi və "ADA" Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun birgə təşkilatçılığı ilə keçirilən seminarlar dövlət sektorunda fəaliyyət göstərən qurumların mətbuat xidmətlərinin rəhbərləri, ictimaiyyətlə əlaqələr üzrə məsul əməkdaşları üçün nəzərdə tutulub.***



Medianın İnkişafı Agentliyinin Kommunikasiya şöbəsinin müdiri Səidə Şəfiyeva bildirib ki, Medianın İnkişafı Agentliyinin nizamnaməsi ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq dövlət qurumları ilə media subyektləri arasında qarşılıqlı əməkdaşlıq münasibətlərinin möhkəmləndirilməsi və eyni zamanda, qarşılıqlı etimadın artırılması istiqamətində tədbirlərin həyata keçirilməsi Medianın İnkişafı Agentliyinin əsas vəzifələrindəndir: "Bunu nəzərə alaraq MEDİA olaraq biz silsilə tədbirlər həyata keçiririk. Ötən il də ADA Universiteti ilə birlikdə silsilə seminarlar keçirmişdik və həmkarlarımızın bir çoxları bu seminarlarda iştirak edib. 18 aprel tarixindən etibarən biz növbəti silsilə seminarlara start verdik. İki həftə davam edəcək tədbirlərdə həm yerli, həm də xarici mütəxəssislərin çıxışları nəzərdə tutulur. Seminarın keçirilməsində əsas məqsəd isə həm media əlaqələrinin qurulması, eyni zamanda kommunikasiya strategiyasının hazırlanması və səmərəli şəkildə işlənilməsi, gündəmə uyğun olaraq proaktiv və reaktiv fəaliyyətin aparılmasıdır. Seminarın bugünkü mövzusi böhran kommunikasiyası ilə bağlıdır. Bu istiqamətdə çox maraqlı müzakirələr aparıldı. Qeyd edim ki, iştirakçılar sonda sertifikatlarla təltif olunacaqlar".

Seminarda iştirak edən Gənclər və İdman Nazirliyinin mətbuat katibi Qabil Mehdiyev bildirib ki, Medianın İnkişafı Agentliyinin ADA Universiteti ilə birlikdə təşkil etdiyi seminar həqiqətən də çox faydalıdır: "Öyrənmək üçün heç vaxt gec deyil. Biz nə qədər təcrübəli olsaq da, dünəndən etibarən başlayan bu trenniq sayəsində də bir daha şahidi olduq ki, mətbuat katibləri və kommunikasiya sahəsində işləyən mütəxəssislər öz işləri ilə əlaqədar olaraq hər gün yeniliklərə açıq olmalı və öyrənməlidirlər. Dünəndən etibarən bu trenniqlərdə müasir tendensiyaların və yeniliklərin şahidi olduq və öyrəndik".

TƏBİB-in İctimaiyyətlə əlaqələr və tədbirlər şöbəsinə müdiri Zamirə Ədilova qeyd edib ki, çox interaktiv, dinamik və praktik işlərlə zəngin bir təlimdir: "Təlimdən çox böyük gözləntilərim var. Həqiqətən də, mənim gözləntilərimi qarşılayan təlimdir. Hesab edirəm ki, bu təlim digər həmkarlarım üçün də faydalı olacaq. Bəzən elə olur ki, praktiki olaraq nəzəriyyədə bildiyimiz məqamları tətbiq edirik, lakin bəzi məqamlar olur ki, unuduruq. Amma fəaliyyətdə də bunun tətbiqi istənilən halda kommunikasiya menecerləri üçün müsbət nəticələrə yol aça bilər. Artıq ikinci gündür ki, təlimdəyik. Həqiqətən də, bu müsbət çalarları hiss etməyə başlamışıq. Ümid edirik ki, təlimdə əldə edəcəyimiz sertifikatlar da gələcək karyeramızda müəyyən cığır açacaq".

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin İnformasiya Təminatı və İnnovativ Həllər şöbəsinin müdiri Mansur Piriyevin sözlərinə görə, seminarda ictimaiyyətlə əlaqələr işinin təşkili, eyni zamanda kommunikasiya strategiyası ilə bağlı təcrübə mübadiləsi aparılır: "Bildiyimiz kimi hazırda bu sahədə informasiya texnologiyalarının tətbiqi genişlənib. Burada sosial şəbəkələrin fəaliyyəti geniş istifadə olunur. Bu sahədə həm mütəxəssisləri dinləmək, həm də bu sahədə müzakirə aparmaq bizim üçün çox vacibdir".

***Arzu Qurbanzadə***

AKTUAL+ŞƏRH

## Bəhruz Quliyev: "MQ-nin əhəmiyyətsizliyini ilk dəfə və qəti olaraq İlham Əliyev gündəmə gətirdi"

"Minsk qrupu (MQ) nəinki vasitəçilik, eləcə də ömrünü başa vurmuş institut kimi tarixin arxivinə göndərilir və bu məsələdə əsas günahkar tərəf də, məhz həmin qrupun doğru istiqamətdə, daha dəqiq desək, üzərinə düşən məsuliyyət yönündə fəaliyyət göstərməməsi səbəbidir - ikili standartlar, hətta zaman-zaman birtərəfli mövqe nümayiş etdirməsi".



Bu fikirləri SİA-ya "Səs" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev deyib. Onun sözlərinə görə, artıq Rusiya və Fransa deyil, həm də ABŞ da Minsk qrupunun fəaliyyətinin iflasa uğramasını, yəni həmsədrlik institutunun ləğvini vaxtilə həmsədrlik edən Endryu Şoferin vəzifəsini dəyişərək, Qafqazda danışıqlar üzrə müşavir təyin olunması ilə göstərə bilərik: "Maraqlıdır ki, bu günlərdə İrəvanda səfərdə olan Şofer erməni mediasında "ATƏT-in Minsk qrupunun ABŞ-dan olan həmsədri" kimi təqdim edilib, lakin fakt budur ki, artıq onun rəsmi vəzifəsinin adı, təyinatı tamamilə başqa istiqamətdədir. Bu da onu göstərir ki, erməni tərəfi hətta özləri-özlərini aldatmaqla son anda isə saman çöpündən yapışmağa cəhdlər göstərirlər. Yəqin ki, Amerikanın Dövlət Departamenti Ermənistana bu məsələdə düzəlişlər etməsi ilə bağlı göstərişlərini verəcək".

"Biz unutmamalıyıq ki, MQ 28 il boyunca yalnız boş-boş kağızlar və sənədlər, məntiqsiz, əhəmiyyətsiz bəyanatlar, eləcə də regionda turist səfərləri keçirməsi üzərində fəaliyyət göstərib və buna əlbəttə ki, son qoyulmalı idi. Biz onu da xatırlatmalıyıq ki, bu sonu məhz Azərbaycan Prezidenti İlham Əliyev 44 günlük müharibədən sonra bəyan etdi", deyən siyasi ekspert xatırladıb ki, çağırılmamış qonaq qismində Bakıya təşrif buyurmuş üçlük formata xitabən onların fəaliyyətlərini sərt şəkildə tənqid edən dövlət başçımız artıq bundan sonra onlara ehtiyacı olmadığını, Qarabağ problemini Azərbaycanın özü həll etdiyini açıq-aydın ifadə etdi.

Eləcə də, aprelin 12-də keçirdiyi müşavirədə də bu formatın fəaliyyətinin sıfır həddindən aşağı olduğunu vurğulaması Prezident İlham Əliyevin açıq və aydın mövqeyini bir daha nümayiş etdirdi: "Bu gün Ermənistan siyasi iflasa uğramış lazımsız bir qurumu istədiyi qədər "ATƏT-in Minsk qrupu" kimi adlandıra bilər, amma fakt budur ki, artıq keçmiş həmsədr ölkələrin dövlət rəhbərlikləri belə bu təsisatın "dəfn olunduğunu" həmsədrlərə isə yeni vəzifə təyinatları verməklə etiraf etdilər. Bu baxımdan, hesab edirəm ki, artıq üçlük formatın aqibəti haqqında danışmaq, münasibət göstərmək ehtiyacı qalmayıb. Bu gün post-münaqişə dövründə yeni vasitəçilərin əmələ gəlməsi - misal üçün, Avropa İttifaqı Şurasının rəhbərliyinin təşəbbüslərlə çıxış etməsi, habelə regional ölkə olaraq Rusiyanın vasitəçiliyi də belə nəticəyə gəlməyə zəmin yaradır ki, rəsmi Bakının regiona təqdim etdiyi qlobal dəyişiklik mühiti özündə yeni reallıqları ehtiva edir və bu reallıqlar eyni zamanda, Azərbaycanın mövqeyini daha da gücləndirir. Düşünürəm ki, yeni vasitəçilik missiyaları Cənubi Qafqaza uzunmüddətli sülh və əminamanlıq mühitini gətirəcək, əlbəttə ki, Azərbaycan xalqının və dövlətinin maraqları çərçivəsində".

***Rövşən RƏSULOV***

# "Azərbaycan öz gücü, qüdrəti ilə ərazilərin yenidən qurulmasını həyata keçirir"

**"Azərbaycan Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə aprelin 12-də 2022-ci ilin birinci rübündə həyata keçirilmiş tədbirlər və qarşıda duran vəzifələrlə bağlı müşavirə keçirilib. Müşavirədə təkcə 2022-ci ilin birinci rübünə dair yox, böyük bir dövrü əhatə edən görülmüş işlərlə bağlı fikirlər səsləndirildi". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Cavid Osmanov bildirib.**



Onun sözlərinə görə, eyni zamanda müşavirədə qarşıda duran vəzifələr müəyyənləşdirildi: "44 günlük Vətən müharibəsində əldə etdiyimiz qələbə, postmünaqişə dövrü, Ermənistan-Azərbaycan münasibətlərinin sonrakı mərhələsi, beynəlxalq aləmdə Azərbaycan dövlətinin yaratdığı yeni reallığın qəbul edilməsi və bir çox sahələrlə bağlı müşavirədə müzakirələr aparıldı və ölkə Prezidenti tərəfindən yeni hədəflər müəyyənləşdirildi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tarixi qələbəmizdən dərhal sonra həmin ərazilərdə böyük yenidənqurma və bərpa işlərinin aparılması üçün fərmanlar imzalanmış, dövlət büdcəsindən müəyyən məbləğdə pul ayrılmışdır.

Bildiyimiz kimi 2021-ci il və 2022-ci illərdə işğaldan azad edilmiş torpaqlara 2.2 milyard manat vəsait ayrılmışdır. Həqiqətən də geriyə baxdıqda görürük ki, tarixdə görülməmiş işlərə imza atmışıq və bu işlərin görülməsini Azərbaycan öz gücü ilə həyata keçirmişdir. Burada qısa müddətdə Füzuli Beynəlxalq hava limanının tikintisi başa çatdı, avtomobil yollarının çəkilməsi, dəmiryol xətlərinin çəkilməsi, yüksək gərginlikli elektrik enerjisi təminatı, içməli su, qaz təminatı, infrastrukturlarının həyata keçirilməsi ilə bağlı işlər davam etdirilir, o cümlədən erməni vandalları tərəfindən darmadağın edilmiş tarixi, dini mədəni abidələrimiz bərpa olunur. Ölkəmizin birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu böyük layihələr həyata keçirir, turizm potensialının artırılması üçün müasir mehmanxanaların tikintisi davam etdirilir. O cümlədən iki beynəlxalq hava limanının tikintisinin davam etdirilməsi, Ağdam və Şuşa şəhərinin baş planlarının təsdiq olunması və buna uyğun işlərin həyata keçirilməsi planlaşdırılır. Bütün bunlar əlbəttə ki, böyük işlərdir. Bunlardan əlavə Ermənistanın bu gün də Azərbaycana qarşı davam etdirdiyi mina terrorunun aradan qaldırılması ilə bağlı tədbirlər həyata keçirilir. Çox təəssüf ki, bu sahədə Azərbaycana heç bir yardım göstərilmir. Azərbaycan öz gücü ilə ən müasir texnoloji avadanlıqları gətirərək minaları təmizləyir. Ermənistanın verdiyi mina xəritələrinin dəqiqliyi çox təəssüf ki, 25 faizdən azdır. Eyni zamanda bütün ərazilərin yenidənqurulması və bərpası ilə yanaşı Şuşanın da yenidənqurulması və bərpası çox böyük önəm daşıyır. Burada artıq bir çox işlər həyata keçirilib. Nəzərə alsaq ki, bu il Şuşanın 270 illiyidir. Şuşa Azərbaycanın mədəniyyət paytaxtıdır. Eyni zamanda TÜRKSOY tərəfindən Şuşa 2023-ci ildə türk dünyasının paytaxtı elan edilmişdir. Bütün bunlar həyata keçirilən böyük işlərin, tədbirlərin nəticəsidir.

Dünyada münaqişələr bitdikdən sonra müxtəlif donor təşkilatları birləşib həmin ərazilərin bərpası üçün əlavə maliyyə vəsaitinin ayrılması ilə bağlı qərarlar qəbul edir. Bu günə kimi çox təəssüf ki, Azərbaycanla bağlı belə qərarlar qəbul olunmayıb. Bu sahədə də təssüf ki, Azərbaycana qarşı ikili standartlar mövcuddur. Amma ölkəmiz öz gücü, qüdrəti ilə bu ərazilərin yenidənqurulmasını və bərpasını həyata keçirir".

***Abutel İlhamqızı***

# ŞUŞA dünya azərbaycanlılarını qoynuna alıb

Bu günlər qoynunda dünya azərbaycanlılarını görmək necə də qürurvericidir, əziz Şuşa. Onların hər biri düz 28 il sənsiz qalmışdılar. Bütün diasporlarda sənin azadlığın üçün əllərindən gələni etmişdilər. Bu gün sən azad qoynunu onlara açarkən sanki bir ana qəribçilikdən qayıdan balalarına ağuşunu açıbmış kimi gəlir insana. Bütün bu xoşbəxt görüntülərin fonunda 2020-ci ilin payızında Vətənə qayıdışını xatırlayıram. Qayıdışını Şəhidlər Xiyabanından saldın, şəhidini, torpaq uğrunda canlarından keçənlərini bağrına basdın, 1990-cı illərin 20 Yanvarında, Xocalı qətliamında, bir-birinin ardınca işğal olunan qolbudaqlarında can qoyub, qan tökən igid övladlarını ziyarət etdin, azadlığının müjdəsini doğmalarına verib Qarabağa-ata-baba yurduna doğru yolçuluğa çıxdın, Şuşa. Sənə elə bu da yaraşırdı. Axı sən qala qürurlu, şiş dağ vüqarlı, əzəmət mücəssəməsi, yenilməzlik simvolusan, Qarabağın ağsaqqalısan. Ey Qarabağın gözü, döyünən ürəyi, Azərbaycanın baş tacı... Bir daha azadlığın, hürriyyətin mübarək! Ey igid oğlu dağlar, mərd qızı qayalar olan gözəlliklər məskəni Şuşa. Bayrağının qırmızısından gözəllərinə köynək, yaşılından ətək biçən, mavisini göy üzünün buludları, dumanı-çəni ilə qarışdırıb gözəllərinə örpək edən Şuşa. Ey tarixin əzəli, mədəniyyətin beşiyi, şeiriyyətin məskəni Şuşa! İndi sən necə də bəxtiyarsan. Lakin o qara günlərin də gözlərimiz önündən heç vaxt gedə bilməz. O günlər tariximizin səhifələrinə əbədiyyən həkk olunub. O tarixi hər dəfə yada salıb gənclərimizə də anlatmaqla onları elə böyütməliyik ki, bir daha başımız belə bəlalar çəkməsin.

## Unudulmayan tarix: 28 il əvvəlki və 28 il sonrakı 8

Yaxşı yadımdadır işğal olunduğun gün. Azərbaycanın başının üzərini dumanların aldığı gün. Qarabağdan acı xəbərləri yalnız televizordan alırdıq. Əliyalın insanların canları-qanları bahasına yurd yerlərimizin müdafiəsinə qalxmasını, onların Azərbaycan rəhbərliyindən dəfələrlə kömək istəməsini, lakin heç bir kömək ala bilmədiklərini eşitmişdik, bilirdik. Onlara heç bir köməyin gəlməyəcəyini də bilirdik. Çünki Qarabağ o zamankı ölkə rəhbərləri tərəfindən imperiyaya hədiyyə olunmuşdu. Ona görə də ardıcıl şəkildə gedəcəkdilər. Getdilər də. Bizə qalan isə şəhid övladlarımız, yurdları talanmış didərginlərimiz, bir də 28 illik nisgil, həsrət oldu.




Şuşa, bu gün qoynundakı dünya azərbaycanlılarını bir araya gətirən, dünya azərbaycanlılarının qurultaylarının keçirilməsinin təməlini qoyan ümummilli liderimiz sənin və sənin kimi işğal altındakı torpaqlarımızı hər zaman təəssüf hissi ilə anır, onların geri qaytarılmasına böyük inam bəsləyir və ömrünün sonunadək bu sözləri deyirdidi: "Hər bir azərbaycanlı bilməlidir və hazır olmalıdır ki, əgər bizim bütün cəhdlərimiz nəticə verməsə, nəyin bahasına olursa-olsun, canımızın, qanımızın bahasına olsa da, işğal olunmuş torpaqlarımızı azad etməli, Azərbaycanın sərhədlərinin toxunulmazlığını, ərazi bütövlüyünü təmin etməliyik. Bu, qarşımızda duran vəzifədir və biz onu nəyin bahasına olur-olsun yerinə yetirəcəyik".

Ulu öndər torpaqlarımızın geri alınması üçün beynəlxalq aləmdə böyükmiqyaslı işlər həyata keçirdi. Lakin dünya susdu. Ölkəmizin Prezidenti cənab İlham Əliyev də eyni ulu öndər kimi bu istiqamətdə danışıqlar apardı, Qarabağ problemini beynəlxalq səviyyədə həll etməyə, düşmənin sülh yolu ilə torpaqlarımızdan çıxarılmasına çalışdı. Lakin dünya yenə də susdu. Mənfur düşmən isə hələ üstəlik yeni ərazilər işğal etmək xülyasına düşdü. Belə olanda isə ulu öndərimizin həm mənəvi, həm də siyasi varisi Ali Baş Komandanımızın rəhbərliyi ilə Azərbaycan Ordusu düşməni yerlərində oturtmağı bacardı. Şəhər, qəsəbə və kəndlərimiz bir-birinin ardınca düşməndən geri alındı. Biz övladlarımızı itirdik, lakin onların qanı ilə Azərbaycan tarixinin yeni səhifələrini yazdıq.

8 noyabr 2020-ci il. Qarabağın döyünən ürəyi Şuşanın azadlıq müjdəsini xalqına çatdıran Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev: Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları! Mən bu günlərdə dünya azərbaycanlılarından və Azərbaycanda yaşayan insanlardan minlərlə məktub alıram. Hər gün minlərlə məktub. Sadəcə olaraq, heyfsilənirəm ki, bütün bu məktubları oxuya bilmirəm. Sadəcə olaraq, vaxt çatmır. Nə qədər gözəl sözlər, nə qədər böyük dəstək göstərilir. Bu gün biz bir daha bütün dünyaya sübut edirik ki, biz böyük xalqıq, biz məğrur xalqıq! Biz yenilməz xalqıq! Biz döyüş meydanında düşmənə yerini göstəririk!

Bəli, 28 il əvvəlki 8-in üzərindən 28 il sonrakı 8 xətt çəkdi. Şuşa əbədiyyən Azərbaycana-öz doğma anasına qaytarıldı. Artıq qovuşub iki doğma. Onlar indi Azərbaycan bayrağını çiyinlərinə salıb Şuşanın ən uca zirvəsində oturub bir-biri ilə ötənlərdən söhbət edir, biçib-tikəcəkləri yeni qırmızı köynəklərdən, yaşıl ətəklərdən, mavi kələğayılardan danışırlar.

Zamanın o başındakı səkkizlə bu başındakı səkkiz bir-birindən nə qədər fərqli olsa da, Şuşanın taleyində o səkkizlərin hər ikisi var imiş...

Ə z i z



## Alınmaz qaladır Şuşa

Tarix də göstərib, zaman da sübut edib ki, Şuşanın işğalı mümkün olmayan məsələdir. Bəs necə olmuşdu ki, millətdən, Vətəndən, ordudan məhrum ermənilər bunu edə bilmişdilər? Elə bu məsələyə yenidən qayıtmaqda məqsədim də bir daha xatırlatmaqdır ki, Şuşa işğal oluna bilməzdi. Tarixə nəzər salaq: Feodal müharibələri dövründə Şuşa bir neçə dəfə tarixin sınağından uğurla çıxaraq qalib gəlib. Bu qalaya hücum edən Məhəmməd Həsən xan Qacar, Fətəli xan Əfşar, Ağa Məhəmməd şah Qacar onu ala bilməmişlər. Qarabağ hökmdarı Pənahəli xan ərazini düşmənlərdən qorumaq məqsədilə xanlığın ən strateji mövqelərində müdafiə qurğularının tikintisinə başlamışdır. 1747-ci ildə İran hökmdarı Nadir şah Əfşarın ölümündən sonra Pənahəli xan özünü bu torpaqların xanı elan edir və xanlıq ərazisini düşmən hücumlarından qorumaq məqsədilə mükəmməl qala tikdirməyi qərara alır. 1748-ci ildə Bayat qalası, 1752-ci ildə isə Şahbulaq qalası inşa edilmişdir. Lakin Pənahəli xan müharibələr dövründə əhalinin sığınması üçün daha etibarlı, üç tərəfi keçilməz sıldırım qayalarla əhatə olunmuş əlçatmaz dağ yaylasında yeni bir qala ucaltmağı qərara almışdır. Yeni qala ilk illərdə öz banisinin adı ilə "Pənahabad", sonralar isə "Şuşa" adlandırılmağa başlanmışdır.

Beləliklə, tarixə, sərkərdələrə meydan oxuyan Şuşa alına bilməzdi, o, 1992-ci ildə düşmənə verilmişdi və 2020-ci ildə tarix yazan igidlərimiz tərəfindən geri alındı. O tək geri alınmadı, həm də alınmaz qala olduğunu sübuta yetirdi.

## 8 noyabr: "Dağlarda toy"un qara bayramı

Ermənilər 1992-ci ildə Şuşanın işğalı üçün həyata keçirdikləri əməliyyatları məxfi olaraq "Dağlarda toy" adlandırıbmışlar. Tarixən Azərbaycanda gözü olan mənfur düşməndən bundan başqa nə gözləmək olardı ki? Yüzlərlə insanı himayədarlarının köməyi, yardım əli ilə qətlə yetirən, minlərlə insanı yurdsuz-yuvasız edən, evini dağıdan, insanların göz yaşı, faciəsi üzərində öz səadətini quran, hələ üstəlik bunu toy adlandıranlar insanlıq adına layiq deyillər.

1992-ci il mayın 8-də Ermənistanın silahlı quldur dəstələri işğala məruz qoyduqları Şuşada bütün beynəlxalq hüquq normalarını pozaraq mədəniyyət nümunələrinə qarşı vandalizm aktları törətmiş və 600-ə yaxın tarixi-memarlıq abidəsini, o cümlədən Pənahəli xanın sarayını, Yuxarı Gövhər ağa və Aşağı Gövhər ağa məscidlərini, Xurşidbanu Natəvanın evini, Molla Pənah Vaqifin məqbərəsini yerlə-yeksan etmiş, 7 məktəbəqədər uşaq müəssisəsini, 22 ümumtəhsil məktəbini, mədəni-maarif, kənd təsərrüfatı texnikumlarını, orta ixtisas musiqi məktəbini, 8 mədəniyyət evini, 22 klubu, 31 kitabxananı, 2 kinoteatrı, 8 muzeyi, o cümlədən Şuşa Tarix Muzeyi, Azərbaycan Xalça Muzeyinin filialı və xalq tətbiqi sənəti muzeyi, Qarabağ Dövlət Tarix Muzeyi, turist bazasını, Qafqazda yeganə Şərq musiqi alətləri fabrikini dağıtmış, buradakı nadir sənət incilərini talamış və məhv etmişlər. Şəhərin tarixi muzeyinin 5 minədək əşyası, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin Şuşa filialı, Dövlət Qarabağ Tarixi Muzeyinin 1000-dək əşyası, peşəkar Azərbaycan musiqisinin banisi, bəstəkar Üzeyir Hacıbəyovun (300-dən çox əşya), müğənni Bülbülün (400-dək əşya), musiqiçi və rəssam Mir Möhsün Nəvvabın (100-dən çox əşya) xatirə muzeylərinin fondları qarət edilmişdir.

"Dağlarda toy" əməliyyatı 30 ilə yaxın bir dövrdə davam etdirilibdir. Ermənistanın baş nazirinin Şuşadakı "qələbə" xülyalı son rəqsi də həmin əməliyyatın bir xəttini təşkil edirdi.

Lakin Şuşa dağları əli qavallı Xan Şuşinskinin, Bülbülün, Cabbar Qaryağdıoğlunun, Hacı Hüsünün, Məcid Behbudovun, İslam Abdullayevin Mirzə Sadığın sinəsinə basdığı tarının müşayiətindəki möcüzəli səsləri toybayram hesab edib hər zaman. Bu dağlar ermənilərin hər xalqdan bir not, bir akkord oğurlayıb düzənlədikləri musiqidən heç nə alammaz. Bağrından süzülən Turşsu, İsabulağı, Səkinə bulağı, İsti bulaq, Soyuq bulaq, Çarıx bulaq, Saxsı bulaq, Qırx bulaq, Yüz bulağın paklığı, saflığı ilə "Şüşə" adlanan Şuşanın dağları sərxoş ermənilərin murdar rəqsindən heç nə anlamaz. Bu dağlar öz insanının ayaq səslərini, toxunuşlarını toy, bayram bilir, yad tapdağından heç nə anlamaz. Elə bütün bunlara görə də bu dağlarda "Dağlarda toy" əməliyyatını Ali Baş Komandanımız və Azərbaycan Ordusu noyabr əməliyyatı-Şuşanın azadlığı ilə ermənilərin qara bayramına çevirdi.

Ölkəmizin rəhbəri dəmir yumruğunu düşmənin başına endirməklə, bu dağlara təşnəsi olduğu Azərbaycan toyunu bəxş etdi: "Bu günlərdə dəfələrlə Azərbaycan xalqına müraciət edərək düşmənə yumruq göstərmişdim, yumruq göstərmişdim. Demişdim ki, bu yumruq elə belə yumruq deyil. Bu, dəmir yumruqdur. Bu dəmir yumruqla düşmənin başını əzirik və əzəcəyik! Eyni zamanda, bu yumruq birliyimizin rəmzidir. Bax, bu gün Azərbaycan xalqı bu yumruq kimi birləşib! Həmişə belə olacaq! Bu birlik əbədi olacaq! Bu birlik bizə gələcəkdə də bütün vəzifələri icra etmək üçün imkan yaradacaq. Mən bütün bu illər ərzində - 17 il ərzində Azərbaycan xalqının dəstəyini hiss etmişəm, görmüşəm, inamını, mənə olan xoş münasibəti görmüşəm. Bu, mənə güc verir. Bu, mənim siyasətim üçün əvəzolunmaz dəstəkdir. Həmişə Azərbaycan xalqını əmin edirdim ki, mən Vətənə, doğma xalqıma ləyaqətlə, sədaqətlə xidmət edəcəyəm. Şadam ki, sözümün üstündə durmuşam. Həmişə olduğu kimi, sözümə sadiq olmuşam.

Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərimdən biridir.

Əziz Şuşa, sən azadsan!
Əziz Şuşa, biz qayıtmışıq!
Əziz Şuşa, biz səni dirçəldəcəyik!

Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

## Şuşa, növrağın düşmənin bağrını yarır

Azadlığından sonra Cıdır düzündə "Xarıbülbül" Musiqi Festivalının keçirilməsi düşmənin bağrına dağ çəkdi. Azərbaycan musiqisinin heyrətamiz səsi dağlarına-daşlarına yayıldıqca elə bil oyandın, təşnəsi olduğun bu səslə sanki özünə qayıtdın. Azərbaycan musiqisinə göylərdə quşlar dayanıb qulaq asırdı. Axı onlar da bu səsə həsrət idilər. Bu səs düşmənin qulağına yara oldu. Bu səs Cıdır düzündən düşmənin murdar ayaqlarının izlərini sildi.

Daha sonra Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin açılışı, "Vaqıf Poeziya Günləri" nin keçirilməsi, Natəvanın bulağının bərpası, Şuşaya yol çəkilməsi, elektrik enerjisi ilə təminatının yaxılaşdırılması və digər tədbirlərin hər biri yaxınlıqdakı düşmənin göz dağına çevrildi.

Azərbaycanın Mədəniyyət Paytaxtı ?lan edilməyin, bu ilin isə sənin ilin olması bizim qürurumuz, düşməninsə ölümüdür. Budur, sən dünyanın hər yerindən gələn azərbaycanlıları-soydaşlarımızı qoynuna almısan. Onları tarixinin seyrinə çıxarmısan. Yaxın günlərdə isə Dünya Azərbaycanlılarının V Qurultayına ev sahibliyi edəcəksən. Düşmən üçün bundan ağır günlər ola bilərmi? Sinəndə baş tutan bu tədbirlərin hər biri məğlub düşmənin yeni-yeni məğlubiyyətləridir.

Novrağın mübarək, Şuşa. Sənə başını bax belə dik tutmaq yaraşır. Ey Qarabağın baş tacı, bundan sonra ta sən hər zaman belə qürurla yaşayacaqsan. Çünki bu gün dünyanın bəhs etdiyi Azərbaycanın bir yurdusan. Çünki sənin arxanda Ali Baş Komandanımız və Milli Ordumuz dayanır. Nə qədər ki, Azərbaycan var, sənin hər zaman üzün güləcək, Şuşa. Çünki bütün torpaqlarımız qalib ölkənin qoruması altındadır.

***Mətanət Məmmədova***

# "Azərbaycan diaspor təşkilatlarının fəaliyyəti yeni reallıqlarda uğurla inkişaf edir"

**"Bu il Şuşa şəhərində baş tutacaq Dünya Azərbaycanlılarının V Qurultayı xüsusi önəm daşıyır və olduqca qürurvericidir". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Sevil Mikayılova bildirib. Onun sözlərinə görə, tədbirdə 65 ölkədən 400 nəfərə yaxın diaspor nümayəndəsinin iştirakı gözlənilir: "Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun işğaldan azad etdiyi torpaqlarda diaspor nümayəndələrinin görüşməsi, müzakirələr aparması Qarabağ həqiqətlərinin dünyaya çatdırılması işində olduğu kimi, bərpa-quruculuq işlərinə də öz töhfəsini verəcək.**



Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xarici ölkələrdə yaşayan soydaşlarımızla əlaqələr xeyli genişlənib və diasporla iş dövlət siyasətinə çevrilib. Azərbaycanda diaspor quruculuğu sahəsinə hələ ümumilli lider Heydər Əliyevin dövründə və onun rəhbərliyi altında başlanılıb. Heydər Əliyevin başçılığı ilə 1999-cu il dekabr ayında dünya azərbaycanlılarının I qurultayı keçirilib, 2002-ci ildə isə Azərbaycana diaspor siyasətini koordinasiya etmək məqsədi ilə diasporla iş üzrə dövlət komitəsi yaradılıb. Azərbaycanda 31 dekabr - Dünya azərbaycanlılarının həmrəyliyi gününün bayram kimi qeyd olunması ümumi milli diasporun formalaşmasında, Azərbaycan lobbisinin inkişafında başlıca məqamlardan biri olmuşdur".

S.Mikayılova qeyd edib ki, ötən illər ərzində Azərbaycan diaspor təşkilatları ciddi inkişaf yolu keçib: "Prezident İlham Əliyev Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan Diasporuna Dəstək Fondunun yaradılması haqqında Fərman imzalayıb.

Həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində dünya azərbaycanlılarının konsolidasiyasında diasporanın təşkilatlanması iqtiqamətində yeni mərhələnin başlangıcı qoyulub, azərbaycançılıq həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideyaya çevrilib. Qazanılmış nailiyyətlər ölkə daxilində milli birliyin təmin olunmasına, dünya azərbaycanlıları arasında həmrəyliyin güclənməsinə zəmin olub".

Deputat həmçinin vurğulayıb ki, son dövrlər Azərbaycan diaspor təşkilatları uğurla inkişaf edir, koordinasiya mərkəzləri yaradılır: "Tarixi qələbə qazandığımız İkinci Qarabağ müharibəsində də diasporumuzun uğurlu fəaliyyəti Azərbaycanın haqq savaşına öz töhfəsini verdi. Həm lobbiçilik, həm diaspor istiqamətində atılan addımlar ikinci Qarabağ müharibəsində Azərbaycan diasporunun bütün nümayəndələri Ali Baş Komandanın ətrafında "dəmir yumruq" kimi birləşməyi bacardı.

Bu dövrdə diaspor nümayəndələri dünyanın 30-dan çox 200-dəkaksiya keçirdi və Azərbaycanın haqq səsini dünyaya çatdırmağa çalışdı. Bu aksiyalarda ümumilikdə 25 mindən çox soydaşımız və dost xalqların nümayəndələri iştirak edib. 50-dən çox ölkədə fəaliyyət göstərən 300-ə yaxın diaspor təşkilatı tərəfindən müxtəlif ölkələrin dövlət və hökumət rəhbərlərinə, parlament üzvlərinə, beynəlxalq təşkilatlara bəyanatlar, müraciətlər göndərilib. Bu da onu göstərir ki, Azərbaycan diasporu milli maraqlar üçün əlindən gələni etməyə hazırdır. Diaspor təşkilatlarının səmərəli fəaliyyət göstərməsi üçün görülən tədbirlər xaricdə yaşayan soydaşlarımız arasında milli maraqlara, Azərbaycanın nüfuzunun artmasına xidmət göstərmək istəyini motivasiya edib və hər kəsin vahid məqsədlər üçün bir mövqedə birləşməsinə stimul verib".

***Abutel İlhamqızı***




## "Azərbaycanlılar bütün dünyada birləşir"

**"İlk növbədə Ulu Öndər azərbaycançılıq ideyasını yeni bir mərhələ və statusa qaldırdı. Biz bilirik ki, dünyada 50 milyondan çox etnik azərbaycanlı yaşayır. Onlardan 10 milyonu Azərbaycanda, 2 milyon yarımdan çoxu Rusiyada, yarım milyondan çoxu isə Ukraynadadır". Bu sözləri SİA-ya açıqlamasında deputat Rüfət Quliyev deyib.**

Onun sözlərinə görə, bir çox ölkələrdə azərbaycanlıların mövqeyi çox güclüdür: "Amma onların bütün qüvvəsini birləşdirmək Ulu Öndərin səyləri nəticəsində başlayıb. Cənab Prezident də bu siyasəti uğurla davam etdirir. Biz bu siyasətin günü-gündən bəhrəsini görürük və Azərbaycanlılar bütün dünyada birləşir".

Deputat sözlərinə belə davam edib: "Cənab Prezidentin beynəlxalq siyasətinin bir qolu da buraya istiqamətlənib. Biz də bu ənənəni davam etdirəcəyik və çalışacağıq ki, diaspor inkişaf etsin. Burada xüsusilə diasporda fəaliyyət göstərən Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovu göstərmək olar. O iki il yarımdır diasporun sədri kimi fəaliyyət göstərir. İndiyə kimi 45-50 ölkədə fəaliyyəti olub və azərbaycanlılarla görüşüb".

***Ayşən Vəli***

# Vaxtı keçmiş məhsullarla bağlı hansı tədbirlər görülür?

**"Qanunvericilikdə yararlılıq vaxtı keçmiş ərzaq mallarının satışı qadağandır". Bu sözləri SİA-ya açıqlamasında Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bildirib. Onun sözlərinə görə, bununla bağlı olaraq hər hansısa marketdə vaxtı keçmiş məhsul tapılarsa həmin marketi minimum 1500 manat cərimə gözləyir. Yararlılıq vaxtı keçmiş məhsulların hərəkət aloqritmi aşağıdakı kimidir:**

1.Yararlılıq vaxtı keçmiş mal ya dövlət orqanlarının təsiri və ya market sahibinin təsiri ilə satışdan çıxarılır.

2.Satışdan çıxarılan hər bir məhsul çıxarılaraq müəyyən bir yerə toplanılır.

3.Toplanılan məhsullar həmin malı gətirən distributerə qaytarılır.

4.Distributerdə ya onu başqa qablara tökür ya da həmin malın qiymətini və tarixini dəyişərək yenidən istehlakçıya yönəldir.

"Azad İstehlakçılar Birliyi 25 ildir ki, bu alqoritmi alt-üst etmək istəyir. Biz Qida Təhlükəsizlik Agentliyi yaranan vaxtdan təklif edirik ki, yararlılıq vaxtı keçmiş malları istehlakçıya deyil, birbaşa zibilxanaya tulanılmalıdır. Necə ki, Azad İstehlakçılar Birliyinin Sumqayıt şəhər şöbəsinin üzvü İbrahim İbrahimov və Qida Təhlükəsizlik Agentliyinin Sumqayıt nümayəndəliyi son 2 ayda 200 tona yaxın vaxtı keçmiş ərzaq mallarının Sumqayıt paliqonunda məhv edib. Bu da Qida Təhlükəsizlik Agentliyi ilə Azad İstehlakçılar Birliyinin birgə səyi nəticəsində həyata keçirildi. Ancaq əsas səy istehlakçının özü sayəsində baş verdi. O şirkətsə "Sun Food" şirkətidir. Biz çağırırıq ki, "Sun Food" şirkətinə digər şirkətlər də qoşulsun və istehsal etdikləri məhsulun yararlılıq müddəti bitdikdən sonra o yenidən satışa çıxarılmasın. Çox təəssüf ki, bu problem hələ də qüvvədə olaraq qalır. "Sun Food" şirkətindən başqa heç bir şirkət bu fəaliyyəti həyata keçirmir. Bayaq qeyd etdiyim kimi həmin alqoritimlər hələ də qüvvədə qalır.



Azad İstehlakçılar Birliyi bu proseslərin əleyhinədir və mütləq bununla bağlı bir MMC yaradılmalıdır. Həmin MMC-də bütün mağazalardan vaxtı keçmiş məhsulları aradan qaldırıb, zibilxanaya atmalı və ya da başqa məqsədlə istifadə olunmalıdır. Mənim tanıdığım bir neçə insan var ki, onlar vaxtı keçmiş məhsulları pulla almağa hazırdılar. Çünki həmin insanlar bu məhsulları tamamilə başqa bir məqsədlə istifadə edirlər. Lakin biz görürük ki, vaxtı ilə keçmiş məhsulların son ünvanı biz istehlakçılar olur. Nazirlər Kabinetinin 94 saylı qərarının tələbləri yerinə yetirilsəydi biz böyük supermarketlər də açıq şəkildə konfet satışını görə bilməzdik."

***Banuçiçək Hüseynli***



# "Bundan sonra heç bir qüvvə Sülh müqaviləsini əngəlləyə bilməz"

"Bildiyimiz kimi 44 günlük Vətən müharibəsi nəticəsində təcavüzkar Ermənistanın biabırçı məğlubiyyətindən sonra bu ölkədə ictimai-siyasi durum ağır olaraq qalmaqdadır. Müharibədən sonrakı bütün dövrlərdə də baş verən proseslər Azərbaycan diplomatiyasının təntənəsini bir daha sübut edir. İstər 2020-ci il 9-10 noyabr, istər 2021-ci ildə Moskvada və Brusseldə keçirilən gərgin görüşlər Müzəffər Ali Baş Komandanın yenilməzliyini təsdiq etdi". Bu sözləri SİA-ya açıqlamasında deputat Məlahət İbrahimqızı deyib.

Onun sözlərinə görə, bütün bunlara baxmayaraq bu günədək həm daxildəki revanşist qüvvələr, həm də xaricdəki şovonist erməni millətçilərindən ibarət erməni diasporu heç cür bu məğlubiyyətlə barışmaq istəmir: "Hətta təcavüzkar mahiyyətli erməni millətçilərininin arxasında duran və uzun illər onlara hər cür dəstək və ilham verən dünya erməniliyi də sanki pusquda dayanaraq yeni bir münaqişə yaratmaq üçün fürsət gözləyirlər. "Bəlkə də qaytardılar" xülyası ilə yenidən bir təxribat törətməyə çalışanlar Sülh danışıqlarının geridönməz proses olduğunu hələ də anlamırlar. Xüsusilə də əlləri Xocalı uşaqlarının qanına bulaşmış və törətdikləri hərbi cinayətləri ört basdır edən Sərkisyan və Koçaryan kimilər hər vəchlə hakimiyyətə gəlmək planı ilə yeni cinayətlər törətməyə cəhd edirlər. Çox təəssüf ki, bu qüvvələrin girovu olan və uzun onilliklər boyu beyni zəhərlənmiş erməni xalqı hələ də bir alət kimi istifadə edilir".

Məlahət İbrahimqızı sözlərinə belə davam edib: "Bildiyimiz kimi Azərbaycan-Ermənistan arasında post-müharibə dövründə münasibətlərin normallaşması və bütövlükdə bölgənin gələcəyi naminə yetərli hüquqi əsas var və bunun üçün hətta zəmanət verən ölkələr və beynəlxalq təşkilatlar məlumdur, eləcə də birbaşa və ya dolayısı öhdəliklər müəyyənləşmişdir. Buna baxmayaraq bu qüvvələr hələ də anlamırlar ki, bu proses artıq geri dönməzdir. Görünür vaxtilə hakimiyyətdə olmuş bir qrup cinayətkar erməni ünsürləri dünyada mövcud olan ikili standartlarla fitnə çıxaran imperialist qüvvələrə hələ də ümid edirlər. Hesab edirəm ki, 6 aprel 2022-ci il tarixində Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəvəti ilə Azərbaycan Prezidenti, Ermənistanın Baş Naziri ilə keçirilən görüşlər və səsləndirilmiş bəyanatlar bu qüvvələrə tutarlı cavabdır. Faşist xislətli erməni revanşistləri və erməni millətçiləri cənab Şarl Mişelin Brussel görüşlərindən sonra verdiyi bəyanatdan dərs çıxarmaq əvəzinə daha çox ara qarışdırmaq və təxribat törətmək niyyətindədir. Əslində cənab Mişel bəyanatında səsləndirdikləri fikirlər hər zaman xalqımızın milli maraqlarını ifadə edən Azərbaycan xalqının əvəzedilməz lideri, möhtərəm cənab İlham Əliyev tərəfindən Sülh sazişi ilə bağlı Ermənistana göndərilmiş təkliflərin ifadəsi idi.

Bu mənada bu qüvvələr çox gözəl dərk edirlər ki, onlar Sülh sazişinə gedən yolda ancaq qara tikan kolu ola bilərlər. Sadəcə bir gün onların da hesab, sorğu-sual gününün olacağını və uzun illər beyinlərini zəhərlədikləri əzilmiş və səfil durumda olan erməni xalqının onlardan haqq-hesab tələb edəcəyini dərk edirlər. Bu aqoniyada olan quldur Sərkisyan və Koçaryan kimilərin son çırpıntılarıdır. Azərbaycanın Müzəffər Ordusunun təcavüzkar Ermənistan üzərindəki möhtəşəm Zəfərlə çoxəsrlik saxta erməni tarixinin "qəhrəmanları"nın iç üzü tamamilə ifşa olunubdur. Artıq bütün dünya bilir ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin müdrik diplomatiyası ilə uydurma erməni mif darmadağın edilmişdir.

Bugün hər kəsə gün kimi aydındır ki, erməni millətçiləri tərəfindən uydurulmuş və əsil mahiyyəti yalan, saxtakarlıq olan psevdo erməni tarixləri 44 günlük Vətən müharibəsindən sonra iflasa uğramışdır. Əminəm ki, nə vaxtsa çağdaş erməni tarixinin ən utancverici səhifəsi olan "Böyük Erməbi Rüsvayçılığı" və ya "Saxta erməni tarixinin iflası" də qələmə alınacaqdır. Üzümü uçurumun başında dayanan rməni xalqına müraciət edərək ,demək istəyirəm ki, nə qədər ki, gec deyil, erməni revanşistlərə, Sarkisyan və Köçəryan kimi xalqına qənim kəsilənlərə layiqincə cavab verin. Birdəfəlik bilin ki, bu bölgənin taleyinin açarı Azərbaycan Respublikasının Prezidentinin əlindədir".

***Ayşən Vəli***



**Elçin Bayramlı**

# İtirilmiş nəsil

***Azərbaycanda əbədi problemlərdən biri də nəsillərarası estafetin ötürülməsi ilə bağlıdır. Xüsusən də kadrlarla bağlı məsələlərdə. Son dövrlərdə həm dövlət, həm də ictimai təşkilatlarda daha çox gənclərin irəli çəkilməsi tendensiyası müşahidə olunur. Əlbəttə, hər hansı bir təşkilatda, idarədə, nazirlikdə bir şəxsin çox üzün dövrdə vəzifədə qalması istər-istəməz həmin strukturda ətalət yaradır, yenilənməyə və müasir tələblərə cavab verən iş prinsiplərinin bərqərar olmasına mane olur. Məhz bu səbəbdən son dövrlərdə dövlət strukturlarında, özəl müəssisələrdə, ictimai təşkilatlarda bu proses gedir- pensiya yaşını keçmiş nəsil gənc nəsillə əvəzlənir. Bu dediyimiz kimi çox müsbət haldır, lakin burada bir balaca "əmma" var.***

Bu "əmma" ondan ibarətdir ki, əksər hallarda bu dəyişiklik baş verərkən bir mərhələ hoppanma baş verir, nəsillər arası davamlılıqda qırılma olur. Belə ki, yaşlı nəsli ortayaşlı nəsil əvəzləmək əvəzinə, gənc nəsil əvəzləyir. Yəni, konkret misalda desək, 70-80 yaşlı bir şəxsi məsul vəzifədən azad edirlər, amma yerinə... 25-30 yaşlı gənci təyin edirlər. Burada artıq davamlılıq, sistemlilik pozulur. O gəncdən daha təcrübəli, daha bilikli, daha çox dünyagörüşə malik orta nəsil var, onlar sanki itir, buxarlanır.

Əvvəla, bu gənc məsul vəzifə üçün hələ hazır deyil, ola da bilməz. Xalqın, ölkənin taleyinə təsir göstərəcək qərarları hazırlayan, qəbul edən 25-30 yaşlı şəxsin yaşı, həyat təcrübəsi, bilik bazası, insanlarla işləmək üçün psixoloji hazırlığı yetərli deyil. Buna görə də, o nərdivanın bir neçə pilləsini birdən hoppanıb keçəndə burada problem olur. Lakin orta yaşlı nəsil, deyək ki, 1965-1985-ci illər arası doğulanlar, hazırda 35-55 yaş arası şəxslər həm yaşlılardan, həm də gənclərdən bütün sahələrdə daha üstündürlər, təəssüf ki, onlara həm dövlət, həm də ictimai təşkilatlarda çox az rast gəlinir.

Bu nəsil tarixin ən keçməkeşli dövrünü, ən aktiv prosesləri yaşayıb- Sovet dövrunu də görüb, müstəqilliyin əldə olunması dövründəki proseslərdə iştirak edib, beynəlxalq və ölkədaxili siyasi proseslərin içində olub, 1-ci Qarabağ müharibəsində döyüşüb, ölkənin yenidən qurulmasında əsas işçi qüvvə olub, həm əvvəlki, həm də sonrakı sosial və iqtisadi sistemləri, bilir, üstəlik, o müasir texnologiyaların yaranması və formalaşmasında lap başdan iştirak edib, daha çox xarici ölkələrdə olub görüb-götürüb, ölkəni və xalqı daha yaxşı tanıyır. Beləliklə, bu nəsil idarəetmə və peşəkarlıq cəhətdən ideal nəsildir. Çünki, həm yaşı, həm dünyagörüşü, həm təcrübəsi, həm bilik səviyyəsi, həm texnoloji sahəyə bağlılığı, həm psixoloji vəziyyətinə görə hər iki nəsildən üstündür. Bu, "Qızıl Orta" nəslidir. Lakin bu nəsil ortalıqda görünmür, başqa sözlə desək, bu, itmiş, itirilmiş nəsildir.

Son dövrlərdə çox uzun müddət vəzifələrdə ilişib qalmış bu çox yaşlı (70-80) nəsildən bezən vətəndaşlarımız tələb edirdilər ki, onlar dəyişilsin, yerinə gənclər təyin edilsin. Bir çox hallarda belə də edildi. Lakin çox azsaylı istisnalarla bu, əksər hallarda bu heç də yaxşı nəticə vermədi. Həmin sahədə daha çox problemlər yarandı, əvvəlkindən daha çətin vəziyyət yarandı.

Məhz bu səbəbdən də bu itirlmiş ortayaşlı neslin "tapılması" və onların dövlət və ictimai strukturlarda irəli çəkilməsi, daha soğrusu yaşlı nəsli əvəzləməsi lazımdır. Belədə, həm nəsillər arası əlaqə pozulmaz, həm yanaşma daha optimal olar, həm də yaşlı və gənc nəslə xarakterik problemlər aradan qalxar. Estafet sistemi də pozulmaz- yaşlı nəsil estafeti ortayaşlı nəslə verməli, onlarda sonradan onu gənc nəslə ötürməlidirlər. Yəni, hər dəfə gənc nəsil aşağıdan başlayır, təcrübə bilik dünyagörüşünü artıraraq orta yaşda məsul işlərə başlayır və yaşlandıqda yerini orta nəslə verir, həmin orta nəsil də öz yerini gənclərə verir. Beləliklə, həm təbiətin qanunları pozulmur, həm cəmiyyət sistemi sağlam olur, həm də ölkədə zamanın tələblərinə uyğun inkişaf baş verir.

Dövlət sistemində, ictimai və siyasi təşkilatlarda, özəl strukturlarda belə yanaşmaya üstünlük versə, bu, ölkəmiz və xalqımız üçün daha çox faydalı olar. İtmiş, daha doğrusu itirilmiş nəsli tapmalıyıq və ölkənin və xalqın yükünü onların üzərinə qoymalıyıq. Heç şübhə yoxdur ki, onlar bu yükün öhdəsindən digər nəsillərə nisbətən daha yaxşı gələcəklər və ölkəmizin inkişafına öz töhfələrini verəcəklər.

ARAŞDIRMA

# Kadr islahatı necə həyata keçirilməlidir



**İş yeri qaydaları iş yerinin üslubuna, görülən işə, iş yeri siyasətinə və bir çox amillərə görə dəyişə bilər. Kadrların əməl etməli olduğu qaydalar hər bir iş yerində əsasən eyni olsa da, işin keyfiyyətinə uyğun olaraq daha sərt qaydalar da tətbiq oluna bilər.**

Ümumiyyətlə, iş yerinə aid olan maddələrə əməl edilmə-



dikdə, işəgötürənin təzminat və xəbərdarlıq etmədən işdən çıxarmaq hüququ var. Ənənəvi qaydalar kortəbii şəkildə inkişaf edən və ənənəyə sadiq qalan qaydalardır. Bunlar yazılmayıb və hər kəsə aiddir. Bu qaydalar zaman, iş yeri şəraiti və cəmiyyət tərəfindən müəyyən edilir.

**Ümumiyyətlə, ənənəvi qaydaları aşağıdakı kimi sadalaya bilərik:**

- Həmkarlara, işəgötürənlərə və rəhbərlərə hörmətlə yanaşmaq,
- Korporativ ünsiyyətdə hörmətli olmaq, biganə davranmamaq,
- İşin başlama və bitmə vaxtlarına, gəliş və gediş vaxtlarına diqqət yetirmək,
- İşi sahiblənmək və onu öz iş yeri kimi görmək,



- Dürüst olmaq,
- İş yerində sui-istifadə halları barədə işəgötürənə məlumat vermək.

Ümumiyyətlə, hər kəsə aid olan qaydalar bunlardır:

- İşəgötürənin özünə, həyat yoldaşına və ya ailə üzvlərindən hər hansı birinə qarşı hörmətsiz davranmama, təhqir və söyüşlər işlətməməsi,
- Digər işçilərə cinsi təcavüz etməyə cəhd etməmək,
- Alkoqol və ya narkotik vasitələrdən istifadə edərək iş yerinə gəlməmək,
- İşəgötürənin etibarını sarsıdacaq hərəkətlərin edilməməsi
- Səbəbsiz yerə işə getməmək
- Ona tapşırılan işi və ya tapşırığı tamamlamaq
- Əməyin mühafizəsi və təhlükəsizliyi məsələlərinə diqqət yetirmək,
- İş saatlarına uyğunluq,
- İş yerində işin yerinə yetirilməsi üçün nəzərdə tutulmuş alət və avadanlıqların saxlanması və ehtiyatlı istifadə edilməsi,
- İşəgötürən üçün məxfi olan məlumat və ya sənədləri üçüncü şəxslərlə paylaşmamaq,

İş qaydalarından danışmışkən bu məqama da diqqət etmək lazımdır. Dünyada şirkət sahibləri rəhbər vəzifəyə təyin edilərkən hansı qayda və qanunlara riayət etməlidir? Günümüzdə bəzi şirkət sahibləri rəhbər vəzifəyə təyin edilən kimi köhnə işçiləri işdən çıxararaq onları yeniləri, daha doğrusu öz tanışları ilə əvəz edir. Bəs, bu tendensiya nə dərəcədə düzgündür? Belə halların qarşısı necə alınmalıdır? SİA məsələ ilə bağlı araşdırma apararaq deputat, hüquqşünas və ekspertlərin mövzu ilə bağlı fikirlərini öyrənib.

**Milli Məclisin Əmək və Sosial Siyasət Komitəsinin deputatı Vüqar Bayramov:** ”Nəzərə alsaq ki, şirkətdə çalışan adam uzun müddət təcrübə yığır və şirkətdə kadr dəyişikliyi baş verirsə həmin təcrübədən istifadə edilməsinə ehtiyac var. Xüsusən bir sıra inkişaf etmiş ölkələrdə sığorta mexanizmi var və şirkətə yeni gələn rəhbər həmin işçiləri işdən çıxarmaqda maraqlı olmur. Bu sığorta sisteminin mövcudluğu ilə bağlıdır.

İnkişaf etməkdə olan ölkələrin təcrübəsi göstərir ki, bir sıra hallarda yeni rəhbərlər yeni komanda ilə işləməyə üstünlük verir.



Bu baxımdan daha məqsədəuyğun olardı ki, köhnə, xüsususən də ixtisaslı kadrlardan və təcrübədən istifadə olunsun. Bu şirkətin və dövlətin inkişafı baxımından çox vacibdir”.

**Jurnalist Ekspert Mərkəzinin (JEM) sədri Ceyhun Musaoğlu:** ”Bu heç düzgün tendensiya deyil. Hər bir işçiyə onun baca-



rığına uyğun qiymət vermək lazımdır. Bir müəssisənin direktorunun dəyişməsi o müəssisənin sisteminin dəyişməsi demək deyil. Orada işləyən köhnə işçilər artıq peşəkara çevrilib. Niyə başqa rəhbərliyin dövründə işlədiyi üçün yeni rəhbər onu işdən çıxarmalıdır?! Bu heç bir qanunla tənzimlənmir. Həmçinin, qaydaya da uyğun deyil.

Bu Korrupsiya Haqqında Qanuna da ziddir. Doğrudur, bu qanunda göstərilir ki, rəhbər şəxs öz yaxın qohumunu nəzarətində olan qurumda işə götürə bilməz. Lakin rəhbər yaxın qohumunu işə götürməsə də, dostunu-tanışını götürür. Belə iş olmaz. Əgər bir adam mütəxəssisdirsə, öz işinin öhtəsindən layiqincə gəlirsə onun kiminsə qohumu olmağının məsələyə nə dəxli var?! Hər kəs şirkətə və onun inkişafına xidmət etməlidir”.

**Hüquqşünas Fariz Əkbərov:** ”Bu gün müxtəlif sahələrdə fəaliyyət göstərən bir çox şirkət aparıcı kadrların olmaması problemi ilə qarşılaşır. Belə bir problemin həlli üsullarından biri şirkətinizdə idarə kadrlarını inkişaf etdirməkdir.

Demək olar ki, hər vəziyyətdə şirkət rəhbərinin əsas məsuliyyəti əlaqələri idarə etməkdir. Konkret



olaraq, müştəri münasibətlərini idarə edir, işgüzar münasibətlərə meyllidirlər və şirkətin strateji missiyasını və uzunmüddətli baxışını inkişaf etdirməyə çalışırlar.

İlk növbədə həm rəhbər özünə, həm də başqalarına hörmət etməyi bacarmalıdır .

İşçi mühitdə yaranmış münaqişələrin həlli, həll edilməsi və qarşısının alınması bacarığı müvəffəqiyyətli rəhbərin əsas prioritetidir. Buradakı əsas vəzifə, işçilər arasında əmək uğuruna nail olmaq üçün əlverişli sağlam bir mühit yaratmaqdır. Komanda çox dost deyilsə, bu menecerin səlahiyyətinə zərbə vurmaq, bütün səylərini məhv etmək və hətta bütün komandanın işinə təsir göstərə bilər.

Hər inkişaf etməkdə olan şirkətdə, həyəti genişləndirmək və vəzifələri yenidən bölüşdürmək üçün sadəcə ehtiyac duyulduğu bir dövr gəlir.

Şirkət direktoru böyük səlahiyyətlərə və məsuliyyətlərə sahib bir insandır. Buna əsasən, o, şirkət direktorunun bütün tələblərinə tam əməl etməli, ticarət əlaqələrini inkişaf etdirməli və genişləndirməli və mövcud iş planına əməl etməlidir”.

*Ardı Səh. 12*

# Kadr islahatı necə həyata keçirilməlidir?

Əvvəli Səh. 11

**Deputat Fazil Mustafa:** "Bu özbaşınalıqdır. Həmçinin konstitusiyaya və qanuna ziddir. Heç bir məmuru da səbəbsiz yerə işdən çıxarmaq olmaz. Yeni rəhbərin köhnə işçilərə əsassız olaraq toxunması düzgün



deyil. Bunu dəfələrlə müzakirə etmişik. Bizdə elə bilirlər ki, iş yeri onun dədəsinin mülkiyyətidir və ona uyğun hərəkət edirlər. Vətəndaşlar məhkəməyə şikayət edərək öz hüquqlarını qorusunlar. Çünki bu Əmək Məcəlləsinə də zidd bir addımdır".

SİA araşdırma mövzusu ilə bağlı şəhər sakinlərinin fikirlərini də öyrənib.

**Şəhər sakini Zərintac Maisqızı:** "Bəli, bu tez-tez müşahidə olunan haldır. İşçi əgər işində dürüst və məsuliyyətlidirsə onu işdən çıxarmaq yanlışdır. Bu insan çörəyinə bais olmaqdır.

Yeni rəhbər iş sistemini qaydaya salmalıdır. İşçi baxımından yox, digər məsələlərdə yenilik lazımdır. Texniki və maliyyə məsələləri həll olunmalıdır. İşçini işdən çıxarmaq insanlığa yaraşmır və üstəlik də öz tanışlarını düzəltmək məqsədi ilə olursa".

**Şəhər sakini Röya Vahabova:** "Rəhbər olmaq, bu vəzifəyə layiq olmaq hər adamın işi deyil. Rəhbər olacaq adam liderlik xüsusiyyətlərinə sahib olmalı, kollektivi idarə etməyi bacarmalıdır. Bu mənim dostumdu deyib hər kəsi rəhbər təyin etmək olmaz. Rəhbərliyin də bir üsulu, qaydası olmalıdır. Rəhbər birinci növbədə necə rəhbər olacağını bilməlidir.

Dünyanı deyə bilmərəm amma çox təəssüf ki, bizdə vəzifəyə gələn dost necə yaxşı rəhbər olacağını yox, necə yaxşı pul aşıra biləcəyini düşünür. Mən həmişə deyirəm ki, diplomun bir önəmi yoxdur. Önəmli olan bilik, bacarıqdı. Bilik qazanmaq istəyən hər yerdə qazanır. Ona görə rəhbər təyin edəndə öncə düşünsələr ki, bu adamın rəhbərlik qabiliyyəti varmı? Onda daha gözəl olmazdımı? Əgər sənin dostun bacarıqlıdırsa, yaxşı rəhbər olacaq niyə də rəhbər olmasın? Amma sırf dost-tanış olduğu üçün vəzifəyə təyin etmək mənə görə insanın öz vicdanına xəyanətidir".

**Şəhər sakini Yunis İsrafilov:** "Rəhbər vəzifəyə təyin olduqdan sonra, ilk işi öncəki rəhbərin idarəçilik üsullarını, hansı addımlarını atdığını, şirkəti necə idarə etdiyini öyrənmək istəyir. Yeni rəhbər vəzifəyə təyin olunduğu zaman öncəki rəhbər çox vaxt bir müddət müavin şəklində rəhbərin yanında hərəkət etməli olur. Yeni rəhbər vəzifənin necə idarə olunma formasını tutduq sonra özünə yeni müavin təyin edir. Bundan sonra onun işçilər içində necə islahatlar aparacağı çox maraqla gözlənilir, öncəki rəhbərdən işçilərin vəzifəsini öyrənsə də özünə məxsus bir neçə islahat apararaq, öncəki rəhbərdən daha güclü olduğunu göz önünə almağa çalışır. Bunun Avropa üçün doğru olduğunu düşünmürəm ona görə ki, Avropa da əksər iş adamları vəzifəyə rəhbər təyin edərkən, qohumluq bağından çox qazanacaqları maliyyəni düşünürlər".

**Şəhər sakini Nərgiz Xəlilli:** "Ümumiyyətlə, rəhbər şəxs daha əvvəldən bütün vəzifələr üzrə çalışıb irəli getməldir. İstənilən şirkətdə bütün işlərdən xəbərdar olmaq üçün ən aşağı vəzifələrdə belə çalışmalıdır. Bu zaman işə tam hakim bir rəhbəri görə bilərik.

Bununla yanaşı o, işçilərlə daha rahat empatiya qurub, problemlərini görüb həll edə bilər".

*Ayşən Vəli*

## Ermənistanı qarşıda ağır günlər gözləyir?

"12 aprel tarixində bu ilin birinci rübünun yekunlarına dair müşavirədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev vurğuladı ki, hazırda Ermənistanın son şansları mövcuddur. Yəni bu son şansdan Ermənistan tərəfi yaralanmazsa, ağır vəziyyətə düşəcəklər". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Elşad Mirbəşiroğlu bildirib.

Onun sözlərinə görə, Ermənistan rəhbərliyi də Azərbaycanın yaratmış olduğu reallıqları görüb, dərk edir: "Sadəcə olaraq, Ermənistanda siyasi qüvvələr Paşinyanın Azərbaycanla sülh sazişi imzalamazdan başqa yolu olmadığını görür və bilirlər ki, Paşinyan Azərbaycanla sülh sazişini imzalayacaq. Ona görə də, Ermənistandakı qüvvələr revanşist mövqe tuturlar və Paşinyan sülh sazişini imzalayacağı təqdirdə, onu xəyanətdə ittiham edərək, hakimiyyətə gəlmək üçün cəhdlər edəcəklər. Ermənistan dövlətinin daxilində bu cür qüvvələrin olması Azərbaycanın mövqelərinə zərrə qədər də təsir göstərə bilməz. Hesab edirəm ki, bütün proseslər ancaq daxili auditoriya üçündür və hakimiyyət iddiaları kontekstində baş verir. Paşinyan Azərbaycanın iradəsini qəbul etmək məcburiyyətində qalaraq parlamentin iclaslarında da artıq etiraf edir ki, sülh sazişi imzalamaq lazımdır və başqa yol yoxdur. O açıqlamalarında 2020-ci ildə baş verən İkinci Qarabağ müharibəsini xalqına xatırladaraq bildirmək istəyir ki, sülh sazişi bağlanmazsa Ermənistanın vəziyyəti daha ağır olacaq. Həmçinin, Qarabağın azərbaycana aid oldugunu səsləndiri. Paşinyan proseslərin içində olan biri kimi aydın şəkildə dərk edir ki, Ermənistanın bundan sonra manevra imkanları mövcud deyil. Ona görə də daha ağır vəziyyətə düşməmək üçün Azərbaycanla sülh sazişi imzalamağın mühüm olduğunu anlayır".



*Banuçiçək Hüseynli*

## "Qurultayı daha möhtəşəm edən onun azad edilmiş Şuşa şəhərində keçirilməsidir"

"Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə keçirilən ilk Dünya Azərbaycanlılarının I Qurultayından 21 il ötür. Ötən dörd Qurultay dünyada yaşayan Azərbaycanlıların həmrəyliyinin, birliyinin möhkəmlənməsi istiqamətində çox əhəmiyyətli bir missiyanı yerinə yetirdi". Bunu "Səs" qəzetinə açıqlamasında Qaçqınların və Məcburi köçkünlərin işi üzrə Dövlət Komitəsi yanında ictimai Şuranın sədri Anar Xəlilov deyib.



Onun sözlərinə görə, ötən qurultayların əsas hədəfləri dünyada erməni təcavüzünün ifşa edilməsi istiqamətində xaricdə yaşayan azərbaycanlıların birgə təbliğatının qurulması istiqamətində fəaliyyətin qurulmasına yönəldildi və bu fəaliyyət uğurla həyata keçirildi: "V Qurultay isə artıq torpaqlarımızın düşməndən azad edilməsindən sonrakı dövrə təsadüf edir. Bu Qurultayı daha möhtəşəm edən isə onun azad edilmiş Şuşa şəhərində keçirilməsidir. Ali Baş Komandan İlham Əliyevin ətrafında birləşərək uzun illər erməni işğalına qarşı birgə mübarizə aparan dünya azərbaycanlıları qələbəmizin simvoluna çevrilən Şuşada V Qurultaya yığışmaqla qələbəmizin möhtəşəmliyini bir daha bütün dünyaya bəyan edəcəklər. Bu Qurultay dünyada yaşayan azərbaycanlıların birliyinin bir daha möhkəmlənməsi istiqamətində misilsiz bir xidməti həyata keçirəcək. Eyni zamanda, bundan sonra dünya azərbaycanlılarının mənfur düşmənə qarşı birgə mübarizəsinin daha da uğurla həyata keçirilməsində əhəmiyyətli bir rol oynayacaq".

A.Xəlilov onu da bildirdi ki, dünyada fəaliyyət göstərən diaspora təşkilatlarının fəaliyyətində uğurlu səhifələrin açılmasında bu Qurultayın məhz Şuşada keçirilməsi böyük əhəmiyyət kəsb edəcəkdir: "Dünyanın 65 ölkəsindən dəvət edilən 400-ə yaxın nümayəndələr Şuşada V Qurultayın iştirakçıları olaraq tarixi bir hadisənin şahidlərinə çevriləcəklər. Cənab Prezident Ali Baş Komandan İlham Əliyevin apardığı misilsiz siyasətin nəticəsi olaraq azad olunan Şuşa öz tarixində açılan yeni səhifənin daha bir möhtəşəm tədbirinin ev sahibi olacaq. Əminliklə demək olar ki, bütün dünya azərbaycanlıları bu gün Şuşanı azad edən Müzəffər Ali Baş Komandana, qəhrəman qazilərİmizə öz dərin minnətdarlığını bildirir, şəhidlərimizin ruhunu ehtiramla yad edirlər. Məhz Qurultaydan öncə bütün nümayəndələrin Şəhidlər xiyabanını ziyarət edərək sonra Şuşaya yola düşməsi bunun bariz nümunəsi olacaq. Bu gün dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən diaspora təşkilatlarının uğurlu fəaliyyət göstərməsində Diasporla iş üzrə Dövlət Komitəsinin də fəaliyyətini vurğulamaq lazımdır. Bu fəaliyyətdə Komitəyə uğurlar arzulayıram. Şuşa bu gün qələbimizin simvolu olmaqla yanaşı bütün dünyada yaşayan azərbaycanlıların birlik simvoluna da çevriləcəkdir".

*Gülyana*




## "Burada da əsas tələblərdən biri media reyestrinə daxil olmaqdır"

"Media reyestrinin aparılması qaydalarının, jurnalist vəsiqələrinin və media reyestrinin şəhadətnaməsi formasının ilkin layihəsi artıq hazırlanıb". Bu sözləri SİA-ya açıqlamasında Medianın İnkişafı Agentliyinin Kommunikasiya şöbəsinin müdiri Səidə Şəfiyeva deyib.



Onun sözlərinə görə, hazırda müvafiq qurumlarla müzakirələr aparılmaqdadır: "Düşünürük ki, müəyyən edilmiş müddətdə media reyestrinin həyata keçirilməsinə nail olacağıq. Yalnız media reyestri işə düşdükdən sonra reyestra daxil olan media subyektləri və jurnalistlər müəyyən güzəştlərdən yararlana biləcəklər. Bu güzəştlərdən də biri güzəştli ipoteka kreditindən yararlanmaq imkanıdır. Burada da əsas tələblərdən biri media reyestrinə daxil olmaqdır. Media reyestrı isə 6 ay müddətində formalaşdırılacaq".

*Arzu Qurbanzadə*

# 2022-ci il uğurlu illərdən olacaq

**Aprelin 12-də Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən 2022-ci ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə qeyd olunan məqamlar bir daha təsdiqlədi ki, əvvəlki illərdə ölkə həyatının bütün sahələrini əhatə edən dinamik inkişaf bu ilin 3 ayı ərzində də davam edib və göstəricilər xeyli yüksəkdir. Bir də hər bir ölkənin inkişafında, hədəflərə uğurla nail olunmasında əsas amil iqtiadiyyatın yüksək olmasıdır. Dövlət başçısı dəfələrlə çıxışlarında da bildirir ki, iqtisadiyyatı güclü olan ölkə də güclüdür.**




***FUAD HEYDƏR,***
***YAP Səbail rayon təşkilatının təlimatçısı***

Dövlət başçımızın keçirilən müşavirədə ilin birinci rübündə əldə etdiyi sosial-iqtisadi göstəricilərə diqqət yetirmək kifayətdir. Bu müddətdə ümumi daxili məhsul 6,8 faiz, qeyri-neft iqtisadiyyatımız 10 faizdən çox artıb. Sənaye istehsalı sahəsində artım təxminən 4 faiz, qeyri-neft sənaye istehsalında artım 18 faizdən çoxdur. Göründüyü kimi, bu rəqəmlər ölkədə iqtisadiyyatın şaxələndirilməsi siyasətinin uğurla həyata keçirilməsindən, həmçinin neft-qaz sektorundan asılılığın azaldılmasından xəbər verir. 2003-cü ildən iqtisadi artımın qeyri-neft sektorunun hesabına olmasını qarşıya əsas hədəf kimi qoyan dövlət başçısı İlham Əliyevin çevik, qətiyyətli və düzgün qərarlar qəbul etməsinin məntiqi nəticəsidir ki, Azərbaycan hər bir çətinlikdən uğurla, az itki ilə çıxmağa nail olur. 2019-cu ildən dünyanı bürüyən koronavirus infeksiyası ilə mübarizə tədbirlərinin gücləndirildiyi zamanlarda Azərbaycanın iqtisadi artımı ilə diqqətdə olması, 30-dan artıq ölkəyə humanitar və maddi yardım göstərməsi kimi mühüm addımlar imkanlarımızın təqdimatında əhəmiyyətli rol oynayır. Dövlət başçısı İlham Əliyev müşavirədə birinci rübün yekunlarına söykənərək bildirmişdir ki, hazırda dünya, əgər belə demək mümkündürsə, postpandemiya dövrünə qədəm qoyur və bəlkə də "postpandemiya" sözünü işlətmək bir qədər tezdir. Amma dünyadakı və Azərbaycandakı indiki vəziyyət bunu təsdiqləyir.

"Əsl siyasət konkret, real iş görməkdən ibarətdir"- deyən dövlət başçısının ötən illərdə qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlar cənab Prezidentin daim xalqın mənafeyindən çıxış etdiyini, habelə verdiyi vədlərin sırf əməli fəaliyyətə, praqmatizmə söykəndiyini, gerçəkliyə adekvat olduğunu göstərmişdir. Məhz bu günükü uğurlar əsil siyasətin, görülən real işlərin məntiqi nəticəsidir ki, Azərbaycan inkişaf etmiş dünya ölkələri sırasında 45-ci yerdədir.

2021-ci ildə ölkəmizin sosial-iqtisadi sahədə qazandığı uğurların, eyni zamanda, işğaldan azad edilmiş ərazilərimizdə bərpa və quruculuq işlərinin fonunda bu əminliyi də ifadə edib ki, "Şuşa İli"ndə daha möhtəşəm uğurlara imza atacağıq: "Hər bir sahə üzrə əldə olunan inkişaf yüksək templə davam etdiriləcək. İqtisadiyyatımızın güzgüsü olan 2022-ci ilin dövlət büdcəsi sosialyönümlülüyü ilə yanaşı, müstəqillik tariximizin ən iri həcmli büdcəsi kimi diqqətdədir. Bərpa və quruculuq işlərinə də böyük həcmdə vəsaitlər ayrılıb. Əsas hədəflərimizdən biri işğaldan azad edilmiş ərazilərimizi böyük investisiyalar məkanına çevirməkdir".

Göründüyü kimi, postmünaqişə dövrünün birinci ilinin nəticələri deməyə əsas verir ki, qarşıya qoyulmuş bütün vəzifələr icra edilib və dövlətimizin başçısı xatırladıb ki, beynəlxalq təşkilatlarla fəal əməkdaşlıq davam edib və dünyanın aparıcı beynəlxalq təşkilatları yeni reallıqları qəbul ediblər. Belə ki, BMT xətti ilə Şuşa şəhərində beynəlxalq tədbir keçirilib, Azərbaycanın BMT-yə üzvlüyünün 30 illiyinə həsr edilmiş tədbir baş tutub. Cənab Prezident bu barədə danışarkən vurğulayıb ki, bu, çox əlamətdar hadisə idi və bu reallıq bir daha onu göstərdi ki, nüfuzlu beynəlxalq təşkilatlar - Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa İttifaqı və s. qurumlar Azərbaycanın ədalətli Azərbaycanla Avropa İttifaqı arasında təmasların müharibədən sonra daha intensiv xarakter alması artıq Ermənistanı da öz mövqelərini yenidən gözdən keçirməyə məcbur edib. Avropa İttifaqı postmünaqişə dövrünün reallıqlarını artıq birmənalı olaraq qəbul edib. Təsadüfi deyil ki, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü ilə dekabr və aprel aylarında keçirilmiş üçtərəfli görüşlərin nəticəsi olaraq imzalanmış yekun bəyanatda "Dağlıq Qarabağ" ifadəsi də yer almayıb. Təbii ki, bu da Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasətin daha bir nəticəsidir. Hazırda Avropa İttifaqı Azərbaycan-Ermənistan əlaqələrinin normallaşması ilə məşğuldur və son aprel görüşündə bu məsələlər müzakirə edilib. Azərbaycan iki ölkə arasındakı əlaqələri normallaşdırmaq üçün 5 prinsipdən ibarət təklif verib. Ermənistan tərəfi də bu təklifə müsbət yanaşıb və Brüssel görüşünə qədər artıq bu açıqlamalar verilib. Azərbaycanın ərazi bütövlüyü qəbul edilir və Ermənistan Azərbaycana ərazi iddiasından əl çəkir. Dövlət başçısı İlham Əliyev müşavirədə bu çağırışı etdi ki, bölgədə sülhün bərqərar olunması üçün Ermənistanın silahlanmasına son qoyulmalıdır. Əgər yenidən Ermənistanın silahlanmasına pul ayrılacaqsa, biz bunu qeyri-dost addım kimi qiymətləndirəcəyik və öz addımlarımızı buna uyğun şəkildə atacağıq.

Dövlət başçısı İlham Əliyev müşavirədə yekun nitqində hədəfləri açıqladı. Və bildirdi ki, tarixi Zəfərimizdən sonrakı dövrdə qarşıda dayanan əsas vəzifə bərpa və quruculuq işlərini müasir dövrün tələbləri səviyyəsində həyata keçirmək, soydaşlarımızın Böyük Qayıdışını təmin etməkdir. Bunun üçün əsas məsələlərdən biri minaların təmizlənməsidir. Minalardan təmizlənmə prosesini sürətləndirmək üçün bu il dövlət büdcəsində 100 milyon manata yaxın vəsait nəzərdə tutulub. Bir sözlə, cari ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə səslənən fikirlər bir daha sübut etdi ki, 2022-ci ildə də qarşıya qoyulan məqsədlərə yüksək səviyyədə nail olacağıq.

# Masallı rayon Şərəfə kəndində şəhid Nurlan Əbilovun məzarı ziyarət olunub

YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev, Masallı rayon icra hakimiyyəti başçısı aparatının Vətən müharibəsi iştirakçıları və Şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Qəşəm Hadıyev, Şərəfə ərazi partiya təşkilatının sədri Valeh Seyfullayev və YAP fəalları Masallı rayon Şərəfə kəndindən olan Vətən müharibəsi şəhidi Əbilov Nurlan Fərrux oğlunun ildönümü münasibəti ilə ailəsi və məzarı ziyarət olunub. Ziyarətçilər şəhidin əziz xatirəsini ehtiramla anıb, ruhuna dualar oxumuşlar. Daha sonra Şərəfə kəndində yerləşən şəhidlər abidəsi ziyarət edilib.




***Rəfiqə***

## "Rusiyanın bu məsələdə tutduğu mövqe Paşinyanı ciddi şəkildə narahat edir"

"Paşinyan parlamentdə çıxışı zamanı həm Ermənistandakı, həm də Qarabağdakı ermənilərin kəskin narazılıqla qarşıladığı bəyanat səsləndirib. Söyləyib ki, beynəlxalq birlik Ermənistandan Azərbaycanın ərazi bütövlüyünü tanımağı və Dağlıq Qarabağın statusu ilə bağlı plankanı endirməyi gözləyir". Bunu SİA-ya açıqlamasında ANAP-ın sədri Abutalıb Səmədov bildirib.



Abutalıb Səmədovun sözlərinə görə, Ermənistan liderinin beynəlxalq birliyin bu tələbini qəbul etmək istəyini ermənilər hiddət və qəzəblə qarşılayıblar: "Çünki, "plankanın endirilməsi" dedikdə "müstəqillik xəyalları"ndan imtina olunmasının və Azərbaycan tərkibində yaşamağa hazırlaşmağın" nəzərdə tutulduğunu anlayırlar. Bəs, bu bəyanata biz necə yanaşmalıyıq? Ermənilərin təşviş keçirməsi, qorxması, bu fikirləri qəbul etməməsi səbəbindən sevinməliyikmi? Onların qəbul etmək istəmədikləri hər təklif mütləq bizim xeyrimizə olan kimi qiymətləndirilə bilərmi? Birmənalı şəkildə yox. Əslinə qalsa Paşinyanın 13 aprel 2022-ci il tarixli bəyanatı ermənilərdən daha çox bizi hiddətləndirməli və düşündürməlidir. Nədən? Gəlin əvvəlcə Paşinyanın "beynəlxalq birlik" deyəndə kimi nəzərdə tutduğunu müəyyənləşdirək. Aydındır ki, o ifadəni işlədərkən erməni lideri Cibutini, yaxud, Botsvananı nəzərdə tutmur. Söhbət regionda söz sahibi olan, yaxud, olmaq istəyən və şübhəsiz ki, Minsk qrupuna daxil olan -ABŞ, Fransa, Almaniya, Rusiya kimi ölkələrdən gedir. Bəyanatdan məlum olur ki, bu ölkələr tələb edirlər ki, "Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanısın və Qarabağın müstəqilliyi barədə arzularından imtina etsin".

Partiya sədri deyib ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü bir dəfə MDB-yə daxil olarkən tanıyıb və hazırlanan "sülh sazişini" imzalamaqla ikinci dəfə də tanıyacağı heç kimdə şübhə doğurmur: "Bizi narahat edən ikinci məsələdir. Beynəlxalq birlik Qarabağla bağlı "plankanı" hara qədər endirmək istəyir və bu "endirmə əməliyyatını" necə təsəvvür edir? Bu barədə bizə çox az şey məlumdur. Məlum olan odur ki, ötən ilin fevralında ABŞ Müdafiə Nazirliyinin kollecində keçirilən müzakirələrdən sonra son dərəcə təhlükəli "Azərbaycan üçün Deyton sazişi" təklifi ortaya çıxmışdı. Bu təqribən, 1998-ci ilin noyabrında təklif olunan "ümumi dövlət" variantının yenidən ortaya atılmasıdır və bizim üçün qətiyyən qəbul olunmazdır. Fransa rəsmiləri "status" barədə dəfələrlə danışsalar da, konkret olaraq nəyi nəzərdə tutduqlarını heç vaxt bəyan etməyiblər. Ancaq İkinci Qarabağ müharibəsinin gedişində parlamentin "Qarabağın müstəqilliyinin tanınması" təklifini qəbul edə bilməyən Fransanın ABŞ-la eyni mövqedən çıxış etməsi də heç kimdə şübhə doğurmur. Bəs, Rusiya nə istəyir? 17 noyabr 2020-ci il tarixdə, yəni, müharibədən dərhal sonra V.Putin status barədə danışarkən "bu məsələ gələcəkdə həll oluna bilər" dedi və gələcəyi xeyli uzadaraq məsuliyyəti hətta "özündən sonrakıların" üstünə atdı. Həmin bəyanatdan sonra bir daha bu mövzuya qayıtmadı və bu səbəbdən Rusiyanın mövqeyini müəyyənləşdirmək çətindir. Ancaq bir şey aydındır. Rusiyanın bu məsələdə tutduğu mövqe Paşinyanı ciddi şəkildə narahat edir. Ötən ilin noyabrında Soçi görüşü zamanı onun Rusiyanın vasitəçiliyi barədə Azərbaycan prezidentinin təklifinə qarşı çıxması və "vasitəçi Minsk qrupu olmalıdır"-deməsi də bu narahatçılıqla əlaqədardır. "Qarabağ məsələsi"nin tamamilə gündəlikdən çıxarılmasında bizi ümidləndirən əsas amil Azərbaycan prezidentinin "münaqişənin bitdiyi və heç bir statusun olmayacağı" barədə 10 noyabr 2020-ci il və "Qarabağ münaqişəsinə münasibətdə Rusiya ilə Azərbaycan arasında fikir ayrılığı yoxdur"- fikrinin səsləndirildiyi 22 iyul 2021-ci il tarixli bəyanatlarıdır. Təbii ki, "Minsk qrupu"nun sıradan çıxmasından və Avropa İttifaqından fərqli olaraq Rusiyanın xüsusi nümayəndə təyin etməsindən sonra bu bəyanatlar bizim ümidlərimizi daha da artırır. Hiss olunur ki, Rusiya Avropa İttifaqını bu məsələyə yaxın buraxmaq istəmir və Türkiyə ilə birlikdə "sülh sazişi"nin imzalanmasına, "Qarabağ məsələsi"nin gündəlikdən çıxarılmasına nail olmaq istəyir. Ermənilərin ümidlərinin azalması və havadarlarının mövqeyinin dəyişməsi də Azərbaycanın gücünün, nüfuzunun artmasının və "beynəlxalq birliyin" bununla hesablaşmasının nəticəsidir. Ancaq arxayınlaşmaq olmaz. Ermənilər hələ də "status" ümidlərini, bu məsələdə "beynəlxalq birliyin" dəstəyini itirməyiblər və bu səbəbdən əsas mübarizə hələ qabaqdadır".

***Gülyana***

ANALİTİK + AKTUAL

# "Miatsum" adlı "ideologiya" və havada hazır olan DƏMİR YUMRUQ faktoru!

Artıq erməni ictimaiyyəti heç də "miatsum" adlı sərsəm ideologiya barədə danışmayacaqlar, əksinə, sonradan yaradılmış saxta "Ermənistanın" dünya xəritəsindən silinməsi barədə hay-haray qaldıracaqlar

**Ötən həftə Ermənistanın siyasi məkanı nəzərəçarpacaq dərəcədə canlanmışdı. Belə ki, Ermənistanın faşizm və ultra-millətçilik ideyası fonunda çıxış edən revanşist qüvvələri Moskvaya "sadiqliklərini" inandırmaq, yaxud baş nazir Paşinyana alternativliklərini sübut etmək üçün yenidən küçələrə çıxmaqla rusiyayönlü oriyentasiyalarından istifadə etməyə başlayıblar. O cümlədən, yeni "mübarizə vasitəsi" kimi 44 günlük müharibədə iştirak etmiş hərbçilər belə İrəvanın əsas meydanında guya "fasiləsiz aclıq aksiyaları" keçirəcəklərmiş. Beləliklə, düşüncə və təfəkkür tərzləri dəyişməmiş, 44 günlük müharibədəki ağır və sarsıdıcı məğlubiyyətlərindən dərs götürməmiş daşnak-faşist ideoloqları "miatsum" adlı hərəkatlarını yenidən dirçəltmək cəhdləri ilə Azərbaycanın ərazilərinə işğalçılıq nəzərləri ilə baxmağa başlayıblar.**



### Onların başları məhz Azərbaycan əsgərinin ayaqları altında əzilməli olacaq və buna şübhə də yoxdur!

Yalnız Paşinyanı devirmək məqsədi deyil, həm də Qarabağda silahlı müqavimət planlarını açıq ifadə edən bu revanşist qüvvələr təxribatlara əl atacaqlarını da gizlətmirlər. Belə olan halda isə onların "sadiqlikləri" görüntüsü ilə yanaşı, Qarabağda müvəqqəti yerləşmiş rus sülhməramlılarını öz təxribatlarının qurbanlarına çevirmək cəhdləri ortaya çıxa bilər.

Lakin təbii ki, bütün bunlar onların fərziyə və planlarıdır və daşnak-faşist ideoloqları bu cəhdlərinə əl atarlarsa, ilk növbədə (!), onların başları məhz Azərbaycan əsgərinin ayaqları altında əzilməli olacaq və buna şübhə də yoxdur.

Bu arada, erməni parlamentinin "Ermənistan" fraksiyasından olan müxalifətçi deputatı Andranik Tevanyan bəyan edib ki, "Vətəndaş sazişi" partiyası erməni xalqının maraqlarına cavab verməyən siyasət yürüdür. Onun sözlərinə görə, artıq Paşinyan Ermənistanda arzuolunmaz fiqura çevrilib, eləcə də baş nazir sülh müqaviləsi imzalamağa hazır olduğunu bəyan etməsi ilə Qarabağdakı sülhməramlı kontingentinin həmin ərazilərdən çıxmasına şərait yaratmış olur və s.

### Parlament müxalifəti milli siyasət məkanında yalnız bir istiqamətə doğru yönəlib - onların erməni separatizmi və terrora meyillilik fikirlərini, maraqlarını bölüşməyən hər kəsə qarşı dözümsüzlük, şiddət, hətta linçləmə siyasətini tətbiq etmək

Lakin revanşistlərin hələ aprelin 6-dan əvvəl, yeni Brüssel görüşünə qədər yaratdıqları səs-küyləri də nəticəsiz qalmışdı. Etiraz aksiyaları keçirmək istəyən müxalifət lazımi qədər tərəfdar toplaya bilmədilər. Beləliklə, Paşinyanın Brüsseldə keçirdiyi görüşü zamanı keçirilən aksiyalar uğursuzluqla nəticələndi...

Bir daha xatırladaq ki, erməni ultra-millətçilərinin "düşüncələri" dəyişilməzdir. Və eyni zamanda, onların əsas hədəfləri yalnız revanşizm üzərində qurulmayıb, həm də parlament binasının divarları arasından hakimiyyətə doğru irəliləmək və iqtidarı ələ keçirməkdir. O cümlədən, beləleri üçün sadə insanların həyatları önəmli deyil və yenidən müharibə alovlanarsa, Azərbaycan tərəfindən havada olan dəmir yumruq bir daha enərsə, artıq erməni ictimaiyyəti heç də "miatsum" adlı sərsəm ideologiya barədə danışmayacaqlar, əksinə, sonradan yaradılmış saxta "Ermənistanın" dünya xəritəsindən silinməsi barədə hay-haray qaldıracaqlar.

Daha bir məqam isə budur: istər "Ermənistan", istərsə də "Şərəfim var" fraksiyalarını təmsil edən müxalifətçi





deputatlar arasında ümumiyyətlə post-münaqişə dövründə sülhün bərqərar olması mexanizmlərini formalaşdırmaq qabiliyyətində olan şəxslər mövcud deyil. Ümumiyyətlə, parlament müxalifəti milli siyasət məkanında yalnız bir istiqamətə doğru yönəlib - onların erməni separatizmi və terrora meyllilik fikirlərini, maraqlarını bölüşməyən hər kəsə qarşı dözümsüzlük , şiddət, hətta linçləmə siyasətini tətbiq etmək. Biz burada daşnakçıların illərdən bəri siyasi ideolgiyaları daxilində yer elədikləri "namezis" terror aksiyalarını göstərə bilərik.

### erməni ictimaiyyəti də alacaq

Amma tək küçə şüarları ilə erməni əhalisinin diqqətini özünə cəlb etmək də uğursuz plan hesab edilir. Əvvəlki aksiyalar da həmin reallığı isbatlayıb. Həmçinin, belə bir nəticə də hasil etmək olar ki, Ermənistanda "rusoifil" əhval-ruhiyyəsini özəlləşdirmək revanşistlər üçün daha sərfəlidir. Misal üçün, əgər ilin əvvəlində Rusiya revanşistlər ehtiyatlı şəkildə rus hərbçilərinin ünvanlarına müxtəlif tənqidlər yağdırırdılarsa, indiki geosiyasi qarşıdurmada onlar guya "rusiyapərəstlik mövqelərini" tətbiq edir, bu yöndə şüarlarla çıxış edirlər, məsələn, Rusiyanın Ukraynadakı hərbi əməliyyatlarını dəstəkləməklə və s...

Məhz indi ultra-millətçi daşnak ideoloqları Paşinyanın siyasətini etibarsız hesab etməklə onun anti-Rusiya fəaliyyətini atəşə tuturlar, bu vasitə ilə Moskvanın diqqətini özlərinə tərəf cəlb etməyə çalışırlar. Bu müxalifətə hakimiyyət lazımdır və ictimai dəstək görmədən ona sahiblənə bilməzlər. Ancaq fakt budur ki, onların istənilən cəhdləri - hətta Azərbaycanın Qarabağ regionundakı silahlı təxribat oyunbazlıqları çox baha başa gələ bilər və belə olan halda zərbəni onlarla yanaşı, bütün erməni ictimaiyyəti də alacaq. Və onlar heç də Qarabağdakı Rusiya sülhməramlı kontingentinə ümid etməməlidirlər, çünki onlardan fərqli olaraq Azərbaycanın bütün beynəlxalq hüquqlar çərçivəsində öz suveren ərazilərini separatçı tör-töküntülərdən, revanşizm toxumlarından, daşnak-faşist ideologiyasından təmizləməyə həm gücü, həm hüququ, həm də nəhəng xalq dəstəyi var.

**Ancaq fakt budur ki, onların istənilən cəhdləri - hətta Azərbaycanın Qarabağ regionundakı silahlı təxribat oyunbazlıqları çox baha başa gələ bilər və belə olan halda zərbəni onlarla yanaşı, bütün**

*Rövşən RƏSULOV*

# "Ermənistan öz məğlubiyyətini rəsmiləşdirən sənədə imza atmamağa çalışır"

**Tanınmış Sovet və rus yazıçısı, jurnalisti, ictimai-siyasi xadimi Aleksandr Proxanov "Caliber" analitik mərkəzinə müsahibəsində Qarabağ, ermənilər və Ukraynadakı müharibə haqqında maraqlı fikirlər səsləndirib. Müsahibəni oxucularımıza təqdim edirik.**



***- Aleksandr Andreyeviç, siz vaxtilə Qarabağ münaqişəsinin Rusiyanın müdaxilə etməyəcəyi, sırf hərbi yolla həllini dəqiq proqnozlaşdırmışdınız. Münaqişədən sonrakı dövrdə Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasını necə görürsünüz?***

- Son hərbi əməliyyatlar nəticəsində Qarabağın böyük hissəsi Bakının nəzarətinə qayıtdı, hesab edirəm ki, bu, həmin qələbədən hərbi, geosiyasi və siyasi üstünlüklər əldə etmiş Azərbaycanı müəyyən dərəcədə qane etməlidir. Ona görə də mənə elə gəlir ki, bu müharibənin qalibiyyətlə davam etməsi hissi, xüsusən də Qarabağ bölgəsində Rusiya sülhməramlılarının olması fonunda itib. Əvvəllər mən bu cür bəyanatlar verəndə orada Rusiya sülhməramlıları yox idi. İndi orada elə qüvvələr var ki, onların görünüşü ilə həm Bakı, həm də İrəvan razılaşır. Ona görə də, fikrimcə, münaqişənin bundan sonra da hərbi yolla davam etdirilməsindən danışmaq düzgün deyil.

***- 2020-ci ildəki müharibənin nəticəsi Qarabağ probleminə son qoydu. Amma faktiki olaraq Ermənistan hələ də regionda nəqliyyat kommunikasiyalarının blokunun açılmasının qarşısını alır və sərhədlərin demarkasiyası və delimitasiyası prosesini hər cür ləngidir. Bununla bağlı nə düşünürsünüz?***

- Bu barədə mühakimə yürütmək mənim üçün çətindir, çünki hadisələrdən hələ də uzaqdayam. Amma hesab edirəm ki, bu, ermənilərin tamamilə başa düşülən istəyidir. Bu yolla öz məğlubiyyətləri altında yekun imza atmamağa çalışırlar. Başa düşmək lazımdır ki, Ermənistan müharibədə uduzaraq bu məğlubiyyətin bütün neqativlərini yaşayır və ona görə də bəzi problemlərin həllinə mane olur. Bir növ qalıq kimidir. Düşünürəm ki, belə bir gecikmə nəhayət, bu gün olmasa, sabah və ya o biri gün aradan qalxacaq. Bu aktual deyil, taktiki və müvəqqətidir. Vacib odur ki, gecikmə ermənilər və azərbaycanlılar arasında döyüş əməliyyatlarını bərpa etmək üçün səbəbə çevrilməsin. Amma sonuncu, məncə, baş verməyəcək.

***- Yəni tərəflər sülh sazişi imzalayacaqlar?***



- Yox. Mən belə düşünmürəm. Düşünürəm ki, sülh sazişi üzrə danışıqlar Rusiya və Yaponiya arasında olduğu kimi davam edə və hətta əbədi davam edə bilər.

***- Proqnozunuz optimizm yaratmır. Bununla belə, ermənilərin əvvəl Rusiyanın, sonra isə Avropanın dəstəyini itirməsi kifayət deyilmi?***

- Hesab edirəm ki, indi Avropa üçün Qarabağ və Ermənistan-Azərbaycan münaqişəsi aktual deyil. Avropa bütün hərbi, iqtisadi və siyasi resursları ilə Ukraynaya yönəlib və bu başa düşüləndir. Çünki indi məhz Ukrayna ərazilərində Avropanın və dünyanın taleyi həll olunur. Azərbaycanın ən yaxın strateji müttəfiqi olan Türkiyənin də bu münaqişədə iştirak etməsi ilə bu hadisələr qismən sizin regiona da təsir edə bilər. Ona görə də Rusiyanın qarşısında incə vəzifə durur: onun üçün Ərdoğan və Əliyevlə dostluq münasibətləri saxlamaq və eyni zamanda Ukrayna cəbhəsində türk hərbçilərinin meydana çıxmasına qarşı çıxmaq vacibdir.

***- Yeri gəlmişkən, Ukrayna-Rusiya müharibəsinin qaçılmaz olduğunu şəxsən siz bəyan etdiniz. O zaman nədən bu qənaətə gəldiniz?***

- Onda mən tankların, silahların sayını hesablamaqdan başlamamışam, 1991-ci ildə Rusiyaya qarşı, rus amilinə, rus şüuruna qarşı böyük tarixi zorakılığın törədildiyinə əsaslanmışam. Rusiya ilə əlaqə kəsildi, ruslar qurub-yaratdıqları, çoxlu zəhmət, enerji və pul sərf etdikləri ərazilərdən qovuldular. Ukrayna Rusiyanın Sovet sivilizasiyasını yaratdığı əsas bölgələrdən biri idi. Belə bir şiddətli, kəskin, bir mərhələli amputasiya bərpa ilə təhdid edildi. Hesab edirəm ki, Rusiya 1991-ci ildən sonra çox uduzdu və Amerikanın xarici nəzarəti altında idi.

Lakin sonra Rusiya yavaş-yavaş, amma əminliklə əks hücuma keçir. Bu proses Ukraynada bu gün də davam edir və belə qəddar formaları var.

***- Müharibədən qaçmaq mümkün idimi?***

- Hesab edirəm ki, tarix müxtəlif texnologiyalardan, siyasi və hətta hərbi elmlərdən qat-qat vacibdir. Dediklərim tarixi qaçılmazlıqdır. Tarixi qaçılmazlığa görə rus qisası.



İnanmıram ki, Zelenski hökuməti Belovejskaya sazişləri imzalanana qədər vəziyyəti bərpa etməyə getsin. Radikal millətçiliyə və radikal rusofobiyaya əsaslanan yeni Ukrayna dövlətinin yaradılması ideyası yeni tipli dövlətin yaradılmasının məntiqidir. Belə bir dövlət yaratmaq üçün Ukrayna elitası çoxlu zəhmət, səy və pul xərclədi. Burada danışıqlar yersiz olardı. Danışıqlar aparmağa çalışsalar da, uğursuz oldular.

***- İkinci Qarabağ müharibəsi Azərbaycanın tarixində ədalətli və azadedici kimi qalacaq, çünki biz torpaqlarımızı qaytardıq. Bəs Ukrayna ilə müharibə Rusiyanın tarixində nə kimi qalacaq? Ona nə ad verə bilərsiniz?***

- Bütün müharibələr ədalətli olub. Bunlar Sparta ilə Afina, Roma və Karfagen, Prussiya və Fransa arasında idi. Uduzan ölkələr baxımından isə bu müharibələr ədalətsiz idi. Amma onların hamısı qaçılmaz idi və dərin tarixi xarakter daşıyırdı. Ona görə də bu müharibəni ədalətli və ya ədalətsiz adlandırmaq mənasızdır.

***- "Donbasa xəyanət etmək olmaz" deməklə nəyi nəzərdə tuturdunuz?***

- Onda demək istəyirdim ki, Donbass üsyanla əldə etdiyi "suverenliyini" bundan sonra da müdafiə etməyə hazırdır, Ukrayna tərəfindən dəhşətli təzyiqlərə məruz qalıb. Eyni zamanda, Rusiyanın köklü elitasından da qüvvələr var idi ki, onlar deyirlər ki, Donbassın bizə heç bir faydası yoxdur, onu müxtəlif bəhanələrlə Ukraynaya qaytarmaq lazımdır. Deməli, bu, xəyanət və Donbasın qanlı ətçəkən maşına, ukraynalıların etnik təmizləmə aparacaqları yerə çevrilməsi kimi görünürdü. Mən məhz bunu nəzərdə tuturdum. Buna görə də, Ukraynada bugünkü kampaniyanın motivasiyalarından biri Donbassın dağıntılardan, qırğınlardan qorunması idi. Və burada mən Putinlə razıyam.

***- Çoxsaylı itki və dağıntılarla yanaşı, müharibə genişmiqyaslı humanitar fəlakətə gətirib çıxarır...***

- Müharibə Qarabağda humanitar fəlakətə səbəb olmadımı? Oldu. Hər bir müharibə humanitar fəlakəti gətirib çıxarır. Döyüşən tərəflərin çiçəklənməsinə səbəb olan bir müharibə yoxdur.

***-Bəli, amma 90-cı illərdə Qarabağ müharibəsi, əsasən Azərbaycan üçün genişmiqyaslı humanitar fəlakətə çevrildi...***

- İstənilən humanitar fəlakət dəhşətlidir. Yuqoslaviyada, Cənubi Osetiyada baş verən humanitar fəlakəti xatırlayın. Nə haqqında danışırıq? Müharibələr pirojna deyil, saqqızlı konfet deyil. Hər yerdə daxili ziddiyyətlər çox uzun müddət yığılıb.

***- Ukraynada müharibə necə və hansı zaman çərçivəsində bitə bilər?***

- Hesab edirəm ki, bu müharibə Ukraynanın indiki hakimiyyətinin aradan qaldırılması ilə başa çatmalıdır. Bundan sonra Ukraynanın necə formalaşacağını mühakimə etmək mənim işimə aid deyil. Bir çox variant var. İnanıram ki, müharibə kifayət qədər uzun müddət davam edəcək, biz hələ uzun müddət atəş eşidəcəyik.

***- Qərbə qarşı çıxmaq üçün Ukraynada atəş açmaq? Rusiyalı siyasi texnoloqlar Ukraynadakı müharibəyə belə baxır?***

- Mən bunu Rusiya ilə Ukraynanın təmsil olunduğu Qərbin qarşıdurması hesab edirəm, çünki Ukrayna Qərbin köməyi ilə anti-Rusiya dövlətçiliyini yaradıb. Məhz Qərb belə bir anti-Rusiyanı formalaşdırdı, Ukraynaya külli miqdarda vəsait, hərbi, maliyyə, kommersiya sərmayəsi qoydu. Ukrayna NATO-ya daxil olmağa can atırdı və hərbi alyansın bir hissəsi olmaq istəyirdi, Qərb isə Ukraynanı NATO-da görmək istəyirdi. Ona görə də Ukrayna ilə müharibə, eyni zamanda, NATO ilə qarşıdurmadır.

***- Prezident Putin etiraf etdi ki, o, Ukraynada müharibəyə son qoymaq istəyir.***

- Düşünürəm ki, Putin həqiqətən də bu müharibəni bitirmək istərdi. Ancaq onun harada bitirmək istədiyi vacibdir. Moskva yaxınlığındakı Patriot parkındamı və ya başqa yerdəmi bitirmək istərdi. Bizə harada bitməli olduğunu demədi.

***- Bəs siz nə düşünürsünüz?***

- Düşünürəm ki, Bakıda görüşüb yaxşı şərab içəcəyik.

***- Buyurun gəlin! Son olaraq soruşacağam- indi nə üzərində işləyirsiniz?***

- Həmişə olduğu kimi, kitablar çap etdirirəm. Bilirsiniz, mən həyatımda 16 müharibədə olmuşam, o cümlədən Qarabağ müharibəsi. İndi isə Ukraynada döyüşən Rusiya kontingentindəki əsgərlərimiz üçün şeir yazıram.

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

SƏS
20 aprel
2022-ci il

# Ronaldo:
## "Bu, bir valideynin çəkə biləcəyi ən böyük acıdır"



**_Futbolçu Messi ilə birlikdə dünyanın ən böyük futbolçusu kimi tanınan, "Manchester United" forması geyinən Kristiano Ronaldo bu dəfə qırdığı rekordla deyil, yaşadığı acı xəbərlə gündəmə gəlib. SİA-nın xarici mətbuata əsasən verdiyi məlumata görə, portuqaliyalı dünya ulduzu Ronaldo yeni doğulan oglunun öldüyünü açıqlayıb._**

"İnstaqram" hesabından verdiyi acı xəbərdə o, yeni doğulan əkizlərindən birinin dünyasını dəyişdiyini paylaşıb. Ronaldo açıqlamasında "Bu, bir valideynin çəkə biləcəyi ən böyük acıdır. Qızımızın dünyaya gəlməsi indi bizə bir az da olsa güc, ümid və xoşbəxtlik verir. Əziz oğlum, sən bizim mələyimizsən. Biz həmişə səni sevəcəyik" deyib.

Qeyd edək ki, Ronaldo 28 oktyabr 2021-ci il tarixində paylaşım edərək Georgina Rodriguez ilə əkiz uşaq sahibi olacağını açıqlamışdı. 2010-cu ildə ilk dəfə ata olan Ronaldonun 2 qız və 2 oğlan olmaqla 4 övladı var. Onun 4 uşağından 3-ü daşıyıcı anadan dünyaya gəlib.

***Günay İsmayıllı***

# Körpələr neçə saat yatmalıdır?



Yeni doğulmuş körpələrdə gecələr oyanma halı normaldır. Bu, onları ani körpə ölümü sindromundan (SIDS) da qoruyur. Alimlərin fikrincə 12 saatlıq yuxu rejimi körpələr üçün qızıl standart hesab olunmamalıdır.

Bütün yorğun valideynlər gecə körpələrinin yuxuya gedəcəkləri anı səbirsizliklə gözləyirlər. Körpələrin az yatması ilə bağlı ilk elmi məsləhətlər 1897-ci ildə dərc edilib. Rusiyalı professor yuxu haqqında Londonun "Contemporary Science Series" jurnalında körpələrin sutka ərzində 22 saat yatmalı olduğunu qeyd edib. Sonrakı yüz ildə bu müddət nisbətən qısaldılsa da, məsləhət görülən yuxu saatları körpələrin faktiki rejimindən təxminən 37 dəqiqə çox olub və onilliklər boyu valideynlərdə narahatlıq hissi yaradıb.

BBC-nin xəbərində deyilir ki, ekspertlər yuxunun körpələr və azyaşlılar üçün çox vacib olmasında həmfikirdirlər.

London Goldsmiths Universitetinin yuxu psixologiyası professoru və "İstirahət: yuxu haqqında elm" ("Nodding Off: The Science of Sleep") kitabının müəllifi Alice Gregory deyir ki, "Böyüklərdə olduğu kimi, körpələrdə də yuxu rejimi fərqlidir".

Gregory qeyd edir ki, "ABŞ Milli Yuxu Fondu üç aylığına qədər olan körpənin 24 saat ərzində minimum 11, maksimum 19 saat olmaqla yatmasını tövsiyə edir. Amerikanın Yuxu Tibb Akademiyası isə dörd aydan kiçik körpələr üçün heç bir tövsiyə vermir. Bu təşkilatlardan heç biri gündüz və gecə yuxusunun dövrü ilə bağlı konkret tövsiyələr səsləndirmir".

# 150 milyon dollarlıq oğurluq rəsm tapılıb

**ABŞ-ın Nyu-Meksiko ştatında müəllim Kerri və loqoped Rita Alter öz ətraflarında sakit, sevgi dolu cütlük kimi tanınırdı. SİA xarici mətbuata istinadən xəbər verir ki, onların yaratdığı imic 2017-ci ildə Ritanın ölümü ilə məhv oldu. Kerri 2012-ci ildə vəfat edib. Ritanın ölümü ilə boş qalan evlərindəki qiymətli əşyaları yoxlamaq üçün qardaşı oğlu antikvar satıcısına zəng edib.**

Antikvar mütəxəssisi David Van Auker yataq otağında tanış bir rəsm əsərinə rast gəlib. Bu, holland rəssamı Villem de Kooninqin "Qadın-Oçer" əsəri idi. O, bunun replika olduğunu düşünüb. Çünki 150 milyon dollarlıq orijinal tablo 1985-ci ildə oğurlanıb. Antikvar satıcı, satın alınan artefaktın nümayiş olunduğu Arizona İncəsənət Muzeyinin kuratoruna məlumat verib.

FTB işə qarışıb. Çünki 1985-ci ildə bir bayram günündə rəsm iki nəfər tərəfindən oğurlandıqdan sonra bir daha tapılmayıb. Qadın mühafizəçinin diqqətini yayındırıb, kişi isə bıçaqla kətanı çərçivədən kəsib.



Bu həll olmamış soyğunçuluq FTB-nin "Ən vacib 10 cinayət" siyahısında idi. FTB artefaktı muzeyə təhvil verib. Səlahiyyətlilər, cütlüyün həmin günə qədər işi evdə saxlamasına və satmağa cəhd etməməsinə təəccüblənib.

***Ləman Əlizadə***

# Türkiyədə karantin rejimi ləğv edilir

Türkiyə Koronavirus Elmi Qərargahı tibbi maskalardan istifadə tələbi və karantin rejiminin ləğv edilməsi məsələlərini müzakirə etmək üçün sabah toplanacaq. SİA-nın TurkicWorld-a istinadən məlumatına görə, qərargahda bütün qapalı məkanlarda tibbi maskalardan istifadə məcburiyyətinin aradan qaldırılması məsələsinə də toxunulacaq.

Bunun yanaşı, karantin rejimi müddətinin ləğv edilməsi məsələsinin də müzakirə olunacağı gözlənilir.



## ELAN

**Musayeva Leyla Vilayət qızının adına verilmiş (VÖEN 1405509462) "Kassa mədaxil orderi" (Seriya ƏXZ/2 N 245901-dən 246000) itdiyi üçün etibarsız hesab edilsin.**

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 3220**